# "Qusardakı terror qrupunun arxasında Rusiya dayanır"


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№05 (3344) 4 Fevral / 2025-ci il    Həftədə 1 dəfə çıxır    Qiymәti: 60 qəpik


ANA XƏBƏR



**Balakəndə narkotik əməliyyatı: 16 nəfər saxlanıldı**

# Azərbaycanda 8 terrorçu zərərsizləşdirildi

## Qusarda keçirilən əməliyyat zamanı "Meşə qardaşları"nın daha 6 üzvü saxlanılıb



**Azərbaycan və Rusiya arasında "soyuq savaş"** 8

GÜNÜN NƏBZİ

Siyasət



### Heydər Əliyev Qarabağı ermənilərə verməyə razı olub?

Sabiq XİN rəhbəri "ərazi mübadiləsi" iddialarına aydınlıq gətirdi 10

Fakt

### Korrupsioner məmurlar nə üçün "toxunulmaz" qalır?

Kredit, aliment borcu olanlar həbsdə, dövləti talayanlar isə azadlıqda olmalıdır? 6

Region

### Tramp Putini "xilas edəcək"?

ABŞ-Rusiya münasibətləri qarşıdakı aylarda hansı istiqamətdə inkişaf edəcək? 8

Ölkə

### Hərbi xidmətdə əmək qabiliyyətini itirdi, əlillik dərəcəsi verilmir

Ucar sakini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən şikayətçidir 7

Yazar

### Nurəngiz Günün poeziyası barədə düşündüklərim

(Sevdiyim şairlər silsiləsindən) 14

Aktual



### Uşaqlarda özgüvənsizlik necə yaranır?

Valideyn və uşaq münasibəti necə olmalıdır? 12

Layihə



### "Hər bir cəmiyyətin asılı olduğu şeylər dəyişir"

Mirşahin Əlizadə: "Bizdəki asılılıqların daha çoxu duyğusal asılılıqlardan irəli gəlir" 5

Toplum

### 1 nömrəli uşaq evində baş verən dəhşətli faktlar

"Mehriban xanım uşaq evinə gələndə bizə dedilər ki, tərifləməsən, axşam bilirik nə edəcəyik..."

2010-cu ildə valideynləri tərəfindən 3 uşaq Nizami rayonundan yerləşən 1 saylı uşaq evinə verilib. Həmin gündən bir çox kimsəsizlər kimi, bu uşaqların da qara günləri başlayıb. Valideyn himayəsindən məhrum olmaları bir yana, onlar üstəlik də uşaq evinin müəllimləri tərəfindən təhqir və təhdidlərə məruz qalıb. Adının açıqlanmasını istəməyən xanım deyir ki, hələ də burada gördüklərinin, eşitdiklərinin, o cümlədən də direktorun və müəllimlərin hədə-qorxusunun təsirindədir... 11

Cəmiyyət

### Zaur Mikayılovun "adamı" haqda şok iddialar

Ucar Su Meliorasiya Sistemləri Birliyinin yeni rəis müavini su borularını söküb satır

Ucar rayon sakinləri Əliyev Samir Tahir oğlu, Məsimov Vüqar Yasəf oğlu, Məmmədov İsmət Vadil oğlu və Kərimov Dəyanət Eyvaz oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Sakinlər Ucar rayon Su Meliorasiya Sistemləri Birliyinin rəis müavini Zaur Əzizovdan şikayət edirlər: "Ucar rayon Su Meliorasiya Sistemləri Birliyinə yeni təyin edilmiş rəis müavini Zaur Əzizov böyük su borularanı oğurlayıb satmaqla məşğuldur... 4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№05 (3344) 4 Fevral / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik

# Milyonları öldürən virusla bağlı həqiqət illər sonra üzə çıxdı




## USAID COVID-19 da daxil olmaqla, çox sayda bioloji silah tədqiqatlarını maliyyələşdirib

**Minlərlə insanın ölümünə səbəb olan COVİD-19 labaratoriyada aparılan araşdırma zamanı ”ehtiyatsızlıqdan” yayılıb. Hurriyyet-.az xəbər verir ki, koronavirusla bağlı həqiqətlər illər sonra üzə çıxıb.**

”Tesla”, ”SpaceX”, ”Neuralink” və ”The Boring Company” kimi yüksək texnologiyalı şirkətlərin təsisçisi və rəhbəri Trampın müttəfiqi İlon Mask bildirib ki, ABŞ vətəndaşlarının vergi pulları ilə USAID xaricdə bioloji silahlar üzrə tədqiqat laboratoriyalarını maliyyələşdirib. Onun dediyinə görə, COVID-19 pandemiyası bu cür tədqiqatlardan birinin nəticəsidir.

Mask sosial şəbəkədə bu barədə yazıb: ”Bilirdinizmi ki, USAID sizin vergi pulunuzla, milyonlarla insanın ölümünə səbəb olan COVID-19 da daxil olmaqla, bioloji silah tədqiqatları maliyyələşdirib?”

USAID-in Peter Daszakın rəhbərlik etdiyi ”EcoHealth Alliance” ilə ”PREDICT” proqramı üzərində işləməsi iddiaları daha da gücləndirir. Bu proqram 1,200 yeni virusun aşkarlanmasına, dünya üzrə 5,000 nəfərin xəstəlikləri müəyyən etmək bacarığının artırılmasına və 60 tədqiqat laboratoriyasının inkişaf etdirilməsinə kömək edib. 2004-2022 illəri arasında ”EcoHealth Alliance” USAID-dən 53 milyon dollarla artıq maliyyə dəstəyi alıb.

Mənbələr Peter Daszakın Vuhandakı laboratoriyada tədqiqatlarla bağlı əlaqələrini və bu əlaqələrin COVID-19-un laboratoriya sızması nəticəsində yayıldığını inkar etməyə çalışdığını da ortaya qoyur. Hətta Daszak bu iddiaları tamamilə rədd etmək məqsədilə gücünü və təsirini istifadə edərək ”laboratoriya sızıntısı” təkzib etmişdir. Son aylarda isə ABŞ hökumətinin mənbələri və müxtəlif təşkilatlar COVID-19-un Vuhandakı laboratoriya sızmasından qaynaqlanmasının təsdiq edib.

Bu iddialar pandemiyanın yaranmasının arxasında dayanan amillər haqqında ətraflı araşdırmaların və sualların müzakirə edilməsinə səbəb olub. Bu məsələlər ABŞ hökumətinin gələcək siyasətini və beynəlxalq təşkilatlarla olan əməkdaşlıqlarını yenidən qiymətləndirmək zərurətini ortaya qoyur.

ABŞ-nin yeni prezidenti Donald Tramp administrasiyası 64 illik agentliyi ( USAID ) ləğv etməyi planlaşdırır. ”USAID”in ”X” hesabı şənbə günü silinib və onun vebsaytı da o vaxtdan bəri bağlıdır. Bazar ertəsindən etibarən onlarla USAID əməkdaşı işdən azad edildiyi barədə məlumat verilib. Gecə yarısı, bir neçə USAID işçisi rəsmi e-poçtlarına daxil ola bilmədiklərini bildirməyə başlayıb, bu da daha çox USAID əməkdaşının işdən çıxarılacağına dair narahatlıqları artırıb.

Xatırladaq ki, COVID-19 koronavirusun yaratdığı infeksiyadır və ilk dəfə 2019-cu ilin dekabrında Çinin Uhan şəhərində aşkarlanmışdır. Virus 2019-nCoV (yeni koronavirus) olaraq tanınır və dünyada milyonlarla insanın xəstələnməsinə və bir çox ölümə səbəb olmuşdur. COVID-19, əsasən insanlara tənəffüs yolları vasitəsilə yayılıb, xüsusən öksürək, asqırıq və ya yaxın təmas vasitəsilə...



COVID-19-un əlamətləri arasında yüksək hərarət, öksürək, nəfəs darlığı və yorğunluq yer alır. Bəzi hallarda isə xəstələr hər hansı əlamət göstərməyib, bu da virusun yayılmasını çətinləşdirib. Çox sayda müalicə üsulları, dərmanlar və vaksinlər inkişaf etdirilsə də, pandemiya bir çox ölkədə uzun müddət davam edib.

Pandemiya dövründə dünyada iqtisadiyyat, sosial həyat və səhiyyə sistemləri ciddi şəkildə təsirlənib. COVID-19 ilə mübarizə məqsədilə karantin tədbirləri, maska taxmaq, sosial məsafə saxlamaq və vaksinasiya proqramları tətbiq olunub.

## Əyləncə səhifəsi

# Yeni kəşf edilən planetdə yaşayış olduğu iddia edilir

**Alimlər qalaktikamızda maraqlı bir planet tapıblar. Dünyadan altı dəfə böyük olan bu super planetin qayalıqdan ibarət olduğu açıqlanıb.**



”HD 20794d” adlandırılan bu cisim bizim planetimizdən böyük olsa da, Yupiterdən kiçik bir kütləyə sahibdir. Ən mühüm xüsusiyyətlərindən biri isə bu planetin öz ulduz sisteminin yaşanabilən zonasında yerləşməsidir. Bu zonada maye suyun planetin səthində mövcud olma ehtimalı mövcuddur. Ancaq bu super planetlə bağlı qəribə bir məqam var. Planetlər adətən ulduzların ətrafında elliptik və ya oval trayektoriyalar üzrə hərəkət edirlər. Bu trayektoriyalar demək olar ki, dairəyə yaxın olur, amma heç vaxt tam dairə şəklində olmurlar.

Lakin ”HD 20794d”-nin orbitində fərqli bir vəziyyət mövcuddur. Onun çox elliptik orbitində hər il yaşanabilən zonanın daxili sərhədindən xarici sərhədinə qədər hərəkət etdiyi müəyyən olunub. Bu isə onun həqiqətən yaşanabilən olub-olmaması ilə bağlı suallar yaradır və ya bizim bildiyimiz formada həyatın mövcudluğu ehtimalını şübhə altına alır.

# Lotoreya 25 milyon dollar udan naməlum şəxs

**Honkonqda yerli lotereya oyunları tarixinin ən böyük uduşu qeydə alınıb. Bu barədə yerli “South China Morning Post” qəzeti məlumat yayıb.**

Qalibin adı ictimailəşdirilməsədə, onun təqribən 25 milyn ABŞ dolları məbləğində uduşun sahibi olduğu açıqlanıb.



**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# Balakəndə narkotik əməliyyatı

## 33 kq narkotik aşkarlandı, 16 nəfər saxlanıldı

**Balakən Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat zamanı qeyri-leqal yollarla ölkə ərazisinə gətirilən külli miqdarda narkotik vasitənin realizə olunmasının qarşısı alınıb.**

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan Stopnarkotik.az-a verilən məlumata görə, tədbirlərlə əvvəllər məhkum olunmuş Eşqin İsmayılov saxlanılıb. Ondan 30 kiloqram marixuana və 3 kiloqrama yaxın heroin, eləcə də metadon həbləri aşkarlanıb. Saxlanılan şəxs narkotik vasitələri satış məqsədilə əldə etdiyini bildirib. Məhkəmənin qərarı ilə E.İsmayılov barəsində həbs qətimkan tədbiri seçilib.

Keçirilən digər əməliyyatlarla Balakəndə narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən daha 15 nəfər tutulub. Saxlanılanlardan İlham Muradovun yaşadığı evdən "Kalaşnikov" avtomatı, daraq və patronlar da aşkarlanıb.

Qanunsuz saxlanılan odlu silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində keçirilən tədbirlər zamanı rayon ərazisindən 1 ədəd avtomat və 3 ov tüfəngi də aşkarlanıb.

# Naxçıvanda 43 yaşlı kişi dispanserdə intihar edib



Hadisə srağagün gecə saatlarında Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserində baş verib. 2009-cu ildən bu xəstəxanada qeydiyyatda olan Naxçıvan şəhər sakini, 1982-ci il təvəllüdlü Həsənov Bəxtiyar Eldar oğlu özünü asaraq intihar edib.

O, yanvarın 31-də öz ərizəsi əsasında dispanserə yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.

# 15 yaşlı yeniyetmə hovuzda boğuldu

Qəbələdə 15 yaşlı yeniyetmə hovuzda boğularaq ölüb.

APA-nin Şirvan bürosu xəbər verir ki, Qəbələ rayonunun Vəndam qəsəbəsində fevralın 1-i saat 22 radələrində Ağcabədi rayon sakini 2010-cu il təvəllüdlü Hüseyn Azər oğlu Hüseynov kirayədə yaşadığı evin hovuzunda boğulub.

Faktla bağlı araşdırma aparılır.



# Azərbaycanda 8 terrorçu zərərsizləşdirildi

**Azərbaycan Respublikası ərazisində beynəlxalq terror təşkilatları ilə əlaqəli olan radikal dini-ekstremist qruplaşma üzvlərinin terror-təxribat əməllərinin müəyyən edilməsi və qanunazidd fəaliyyətlərinin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən birgə kompleks tədbirlər görülüb.**

Bu barədə Dövlət Təhlükəsizliyi Xidməti və Daxili İşlər Nazirliyinin birgə məlumatında deyilir.

Həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə əvvəllər "Meşə qardaşları" adlı terror qruplaşmasının fəaliyyətində iştirak etdiyinə görə məhkum olunmuş Qədir Hacıyevin Qusar rayon sakinləri - Kamran Kərimxanov, Ümüd Güləliyev, Valerik Adilov, Riyad Səfərəliyev, Rövşən Laçınov, Nazim Zəkiyev və qeyriləri ilə cinayət əlaqəsinə girməsi, onların birlikdə Qusar rayonu ərazisində terror aktları hazırlamaları, həmin rayonun Hil, Cibir və Yasab kəndlərini əhatə edən meşə massivində yeraltı sığınacaqlar yaratmaları, bu sığınacaqları silah-sursat, partlayıcı maddələr, texniki qurğular və digər zəruri ləvazimatlarla təchiz etmələri təsbit olunub.

İlkin mərhələdə, qruplaşma üzvü olan Əlipaşa Kamilovun yeri müəyyən edildikdən sonra istintaqa cəlb edilməsi məqsədilə keçirilmiş əməliyyat zamanı o, Qusar şəhərində gizləndiyi ünvanda xüsusi təyinatlı əməkdaşlara silahlı müqavimət göstərərək 2 ədəd "RGO-78" markalı əl qumbarası atıb, nəticədə xüsusi təyinatlılardan biri yaralanıb, Əlipaşa Kamilov isə zərərsizləşdirilib.

Davam etdirilən əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində Cibir kəndi yaxınlığında yerləşən meşəlik ərazidə gizli şəkildə yaradılmış sığınacaqlar və saxlanc yerləri aşkar olunmuş, həmin yerlərdə gizlənən qanunsuz silahlı birləşmənin üzvləri - Qədir Hacıyev, Riyad Səfərəliyev, Valerik Adilov və Ümüd Güləliyev silahlı müqavimət göstərərək partlayıcı vasitələri işə salarkən məhv olublar.

Aşkar edilmiş sığınacaqlara keçirilən baxış zamanı oradan partlayıcı qurğuların hazırlanması üçün nəzərdə tutulan torf, aseton, detonatorlar, məsafədən idarə edilə bilən partlayıcı mexanizmlər, qəlpə qismində istifadə edilən armatur və qurğuşun hissələri, 2 ədəd "Kalaşnikov" avtomatı, 3 ədəd ov tüfəngi, patronlar və avtomat güllələri, eləcə də beynəlxalq səviyyədə terror təşkilat kimi tanınmış qanunsuz silahlı birləşmənin simvolu olan bayraq müəyyən edilərək götürülüb.

Həmçinin, görülmüş təxirəsalınmaz tədbirlərlə terrorçu qruplaşmanın üzvlərindən olan Nazim Zəkiyevin Hil kəndinin yaxınlığında yerləşən fermada, Kamran Kərimxanov və Rövşən Laçınovun isə Hil kəndi ərazisində gizlənmələri müəyyənləşdirilib və onlar hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı silahlı müqavimət göstərərkən zərərsizləşdiriliblər.



## Qusarda keçirilən əməliyyat zamanı "Meşə qardaşları"nın daha 6 üzvü saxlanıldı

Araşdırmalarla cinayətkar birliyə daxil olan şəxslərin dairəsi, təşkilatlanma forması, təchizatı, planları ilə bağlı detallar və dəlillər müəyyən edilib.

Qanunsuz olaraq amonium-nitrat, güclü yandırıcı xüsusiyyətə malik torf, detonatorlar və od ötürən qaytanlar əldə edib onlardan istifadə etməklə kustar üsulla partlayıcı qurğular hazırlayan və onları Qusar şəhərində yerləşən "Motel" adlı qonaq evində və onun yaxınlığındakı avtoyuma məntəqəsinin damında gizlədərək saxlayan Etibar Əhmədov qeyd olunan əməlləri davam etdirərkən həmin qurğuların partlaması nəticəsində xəsarət alıb.

Habelə, Qusar rayon sakinləri olan Şərafəddin Mahmudov, Etibar Əhmədov və qeyrilərinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmənin fəaliyyətində iştiraklarına, o cümlədən bu silahlı birləşməni partlayıcı maddələrlə və digər ləvazimatlarla təchiz etmələrinə əsaslı şübhələr müəyyən edilib.

### Qusarda tutulan şəxsləri hansı cəza gözləyir?

Qeyd olunan cinayətkar dəstənin üzvləri - Etibar Əhmədov, Rəhim Mirzəbəyov, David Rəşidov, Şərafəddin Mahmudov, Abugül Babayev və Elçin Əlirzayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28,214.2.1, 28,214.2.3, 28,214.2.6-cı (cinayətkar birlik (cinayətkar təşkilat) halında odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində terrorçuluğa hazırlıq) və digər maddələri ilə istintaqı aparılan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, terrora hazırlıqda ittiham edilənlərin hamısı barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Bu işin istintaqını DTX-nin İstintaq baş idarəsi aparır.

Yuxarıda qeyd olunan maddələrin sanksiyasında 14 ildən 20 ilə və ya işin hallarından asılı olaraq ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur.

"Meşə qardaşları"ndan təsirlənən şəxslərin cinayətinin təfərrüatı məhkəmə araşdırmasında məlum olacaq.

### 9 rayonda polis postları quruldu

Onu da qeyd edək ki, Azərbaycanın Rusiya ilə sərhədyanı rayonlarının ərazisində "Sərhəd-Sipər" şərti adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilir.

"Azərtac" xəbər verir ki, əməliyyatlar Azərbaycan Respublikası və Rusiya Federasiyasının daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən aparılır.

Bir həftə ərzində aparılacaq əməliyyatlarla əlaqədar Quba, Qusar, Xaçmaz, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarının ərazilərində müvafiq yerlərdə polis postları qurulub.

Əməliyyatların əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icrasından ibarətdir.

Kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər fevralın 3-dən 10-dək davam edəcək.

**Hazırladı: İ.SABİRQIZI**




# ADP Qusardakı antiterror əməliyyatı haqda açıqlama yaydı

## Partiya bu radikal dini-ekstremist qrupun arxasında Rusiyanın dayandığını bildirdi

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın Mətbuat Xidmətindən "Hürriyyət"ə bildirilib ki, toplantıda ötən həftə ərzində regionda və dünyada baş verən bir sıra ictimai-siyasi hadisələr müzakirə olunub.**

İdarə Heyəti ilk öncə DTX və DİN əməkdaşlarının Qusar rayonu ərazisində beynəlxalq terror təşkilatları ilə əlaqəli olan bir qrup radikal dini-ekstremist qrupa qarşı keçirdiyi əməliyyatı müzakirə edib. Müzakirələrdə bu əməliyyat Azərbaycanın xarici təhlükəsizliyinin təmin olunması istiqamətində uğurlu addım kimi dəyərləndirilib. Qeyd edilib ki, bu tipli terrorçu qrupları himayə edən, onları silahlandıran və siyasi dəstək verən xarici dövlətlərdir, bundan əvvəl də Şimal bölgəmizdə Rusiya tərəfindən dəstəklənən silahlı qrupların təxribatlar törətdiyini nəzərə alsaq, bu silahlı terror qruplaşmasının da arxasında, heç şübhəsiz ki, Rusiya dayanır. Toplantı iştirakçıları bu tipli silahlı qruplaşmalara qarşı bundan sonra da əməliyyatların davam etdirilməsinin vacibliyini qeyd ediblər.

İdarə Heyəti ötən həftə qonşu Gürcüstan dövlətinin xarici işlər naziri M.Bojorişvilinin Ermənistana rəsmi səfəri çərçivəsində qondarma "erməni soyqırımı" memorial kompleksini ziyarət etməsini də müzakirə edib. Müzakirələrdə bu hadisənin Azərbaycan və Gürcüstan dostluğuna ciddi zərbə vurduğu, baş verənlərin Gürcüstanın yeni hökumətinin Azərbaycanla münasibətlərində səmimi olmadığı, Türkiyə və Azərbaycanın Gürcüstana göstərdiyi diqqət və qayğı müqabilində xarici işlər nazirinin belə bir addım atması ilə Gürcüstanın Türkiyə və Azərbaycanla münasibətlərinə kölgə saldığı ifadə edilib.

İdarə Heyəti Rusiyanın Baş nazirinin müavini A.Overçukun Azərbaycan-Ermənistan arasında sərhədlərin dəqiqləşdirilməsi üçün Rusiyanın kartoqrafik materialları təqdim etməyə hazır olması ilə bağlı verdiyi bəyanata da münasibət bildirib. İdarə Heyəti hesab edib ki, Rusiyanın Azərbaycan Ermənistan arasındakı sərhədlərin dəqiqləşdirilməsinə və sülh danışıqlarının aparılmasına müdaxiləsi yalnız bu münasibətlərin daha da korlanmasına və sərhədlərin dəqiqləşdirilməsi prosesinin uzun müddət davam etməsinə gətirib çıxaracaq. İdarə Heyəti Rusiyanın Cənubi Qafqaza təsirinin azalmasının bölgə ölkələrinin azadlığı və suverenliyi baxımdan müstəsna əhəmiyyətə malik olduğunu nəzərə alaraq, Azərbaycan və Ermənistan rəhbərliyini Rusiyanın sərhədlərin dəqiqləşdirilməsi və sülh danışıqlarının aparılması prosesində hər hansı bir qaydada iştirakından birmənalı şəkildə imtina etməyə çağırıb.

İdarə Heyəti Azərbaycan prezidetinin köməkçisi H.Hacıyevin qonşu İran dövlətinə baş tutan rəsmi səfəri ətrafında müzakirə aparıb. Müzakirələrdə bu səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsinin və İranın prezidenti M.Pezeşkianın Azərbaycana dəvət edilməsinin İran-Azərbaycan münasibətlərinin yoluna qoyulmasına mühüm töhvə verəcəyinə əminlik ifadə edlib. Eyni zamanda son zamanlar İranda Azərbaycan türklərinə qarşı təqiramiz kampaniyanın aparılmasından narahatçılığını ifadə edən toplantı iştirakçıları qeyd edib ki, Azərbaycan türkləri Cənubda və ya Şimalda yaşamasından asılı olmayaraq eyni bir millətdir, Cənubda bu millətə qarşı hər hansı bir təhqir, həmdə Şimalda yaşayan Azərbaycan türklərinə olan bir münasibətdir. İdarə Heyəti baş verənləri qətiyyətlə pisləyərək, bu cür çirkin kampaniyanı aparan şəxslərə qarşı ciddi tədbirlər görülməsini və Azərbaycan xalqından üzr istənilməsini İran hökumətindən tələb edib. Əks halda bu tipli davranışların Azərbaycan-İran münasibətlərində çox ciddi problemlərin yaranmasına gətirib çıxaracağını qeyd edib.

İdarə Heyəti ABŞ prezidenti D.Trampın fələstinlilərin Qəzzadan Misir və İordaniyaya köçürülməsi təşəbbüsünə də münasibət açıqlayıb. İdarə Heyəti bu təşəbbüsü qeyri-humanist addım, deportasiya, xalqların öz vətənlərində yaşamaq hüququna ciddi zərbə kimi dəyərləndirərək, eyni zamanda bunun dünyada arzuolunmaz zəncirvari nəticələrə gətirib çıxaracağını bildirərək qətiyyətlə pisləyib, bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Fələstin dövlətinin yaradılmasının vacibliyini bir daha qeyd edib.

> İdarə Heyəti Azərbaycan prezidetinin köməkçisi H.Hacıyevin qonşu İran dövlətinə baş tutan rəsmi səfəri ətrafında müzakirə aparıb. Müzakirələrdə bu səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsinin və İranın prezidenti M.Pezeşkianın Azərbaycana dəvət edilməsinin İran-Azərbaycan münasibətlərinin yoluna qoyulmasına mühüm töhvə verəcəyinə əminlik ifadə edlib...

İdarə Heyəti ötən həftə Kanada Xarici işlər nazirinin rəsmi Bakıya ""erməni əsirləri" azad etməyə, Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə və erməni mülki əhalinin təhlükəsiz və ləyaqətli şəkildə doğma torpaqlarına qayıtmasına" çağırışına münasibət bildirib. Bu çağırşın heç bir hüquqi və siyasi əsasının olmadığına diqqət çəkən müzakirə iştirakçıları qeyd edib ki, Qarabağdan ermənilər birbaşa Ermənistan dövlətinin tapşırığı əsasında könüllü çıxıb, Azərbaycan dəfələrlə reinteqrasiya təklifi etməsinə baxmayaraq, heç bir erməni Azərbaycana inteqrasiya etmək istəməyib. Ona görə də regiondan min kilometrlərlə uzaqda olan bir dövlətin Azərbaycan Ermənistan münasibətlərinə müdaxiləsi Kanada-Azərbaycan münasibətlərinə də mənfi təsir göstərir.

İdarə Heyəti son zamanlar Rusiya və Ukrayna arasında davam edən müharibənin dayandırılması ilə bağlı ABŞ ilə Rusiya arasında danışıqların keçiriləcəyi ilə bağlı məsələni də müzakirə edib. İdarə Heyəti hesab edib ki, Ukraynanın iştirakı olmadan Rusiya ilə sülh danışıqlarının aparılması məqsədə müvafiq deyil və Ukraynanın şərtləri gözardı edilməməlidir. İdarə Heyəti Rusiyanın bu günkü işğalçılıq hərəkətlərini nəinki regionun, bütövlükdə dünyanın təhlükəsizliyini təhdid etdiyini qeyd edərək bu işğalçı dövlətə qarşı daha təsirli tədbirlərin görülməsinin vacibliyini qeyd edib.

İdarə Heyəti ötən həftə Türkiyədə Ankara, Bakı və Daşkənd arasında strateji tərəfdaşlığın və əməkdaşlığın bir çox istiqamətləri, xüsusilə Türkiyə, Azərbaycan və Özbəkstanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı ilə bağlı Bəyannamənin imzalanmasını təqdir edib və digər türk dövlətləri ilə də anoloji müqavilənin bağlanmasının vacibliyini bildirib.

**Hazırladı: KƏNAN**

# Zaur Mikayılovun "adamı" haqda şok iddialar...

## Ucar Su Meliorasiya Sistemləri Birliyinin yeni rəis müavini su borularını söküb satır

**Ucar rayon sakinləri Əliyev Samir Tahir oğlu, Məsimov Vüqar Yasəf oğlu, Məmmədov İsmət Vadil oğlu və Kərimov Dəyanət Eyvaz oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Sakinlər Ucar rayon Su Meliorasiya Sistemləri Birliyinin rəis müavini Zaur Əzizovdan şikayət edirlər:**



"Ucar rayon Su Meliorasiya Sistemləri Birliyinə yeni təyin edilmiş rəis müavini Zaur Əzizov böyük su borularanı oğurlayıb satmaqla məşğuldur. Artıq çoxlu sayda böyük həcmli su boruları satılmaq üçün yerlərdən qazılaraq çıxarılıb, idarənin (su anbarının) həyətinə yığılıb.

Zaur Əzizovun özü ilə vəzifəyə gətirdiyi Zərdab rayon sakini Ceyran Miraslanlı operator vəzifəsində işləsə də, müdir müavini Zaur Əzizovun yanında oturub, bütün işlərə nəzarət edir. Necə deyərlər, Ucar Su Meliorasiya Sistemləri Birliyinə yeni təyin edilmiş rəis müavini Zaur Əzizov Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun adamı olmasını bildirirərək, talançılığa artıq start verib. Belə getsə, Ucarda su boruları qalmayacaq.

Zaur Əzizov vəzifəyə gəldiyi ilk gündən Ucar rayonunda suyun verilməsi azaldılıb, abonentlərdən əlavə pullar tələb olunur. Sayğaclara müdaxilələr edilir ki, bu yolla vətəndaşların cibini soya bilsinlər.

Ucar Su Meliorasiya Sistemləri Birliyinin bütün texnikaları hər gün "xaltura"ya cəlb edilir. Əldə edilən pullar Zaur Əzizov tərəfindən bölünür.

Qeyd edək ki, Ucar Su Meliorasiya Sistemləri Birliyinin müdiri Müşfiq Məmmədov rayon icra başçısı Mənsur Məmmədovun qardaşıdır. Zaur Əzizovun isə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəisi Zaur Mikayılovun "adamı" olduğu deyilir. Elə bu səbəbdəndir ki, Zaur Əzizov müdiri Müşfiq Məmmədovu saya salmır, idarədə əməlli-başlı hegomonluq edir.

Ucar rayonunda suvarma sistemləri bərbad vəziyyətdədir, su kanalları vaxtlı-vaxtında təmizlənmir. İdarəyə ayrılan yanacaqlar və digər vəsaitlər satılaraq talan edilir. İllərlə təmizlənməyən kanalların ildə bir- neçə dəfə təmizlənməsinə dair saxta sənədləşmələr aparılaraq, dövlətin ayırdığı vəsaiti mənimsəyirlər.

Buna görə də hüquq mühafizə orqanları Ucar Su Meliorasiya Sistemləri Birliyinin fəliyyətini araşdırıb, qanuni tədbirlər görməlidilər".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# QATIĞIN RƏNGİ

Işə gedirdim... Hansısa bankın qarşısında yaşlı bir kişi:

- Vallah, billah, həzrət Abbas haqqı qatıq ağdı!-deyə, yanıqlı-yanıqlı qışqırırdı...

Yanındakı dostu onu sakitləşdirməyə cəhd göstərirdi:

- Yavaş...sən Allah, qışqırma!.. Başıva dönüm, səni də tutub aparallar...

Fikir götürdü məni... "Görən, doğrudanmı qatıq ağdır?.."

* * *

Hakimiyyətimiz heş şübhəsiz ki, şanlıdır, şöhrətli, üstəlik, lap belə şərəflidir; amma nəndən onların məqsədi insanları müqəddəs nə varsa, ondan iyrəndirməkdən ibarətdi?

Əslində, mat qalmalı işdi...necə oldu və nə baş verdi ki, az bir müddət ərzində bizləri bu qədər diskindirdilər, iyrəndirdilər?..

Diqqət yetirin: ANA, əlbəttə ki, ən sevimli və ən ülvi varlıqdır. ANA saydığımız anlayışlar içərisində ən müqəddəsi isə VƏTƏNDİR, yəni - ANA VƏTƏN!

Əfsus, təəssüf və səd heyif ki, bu gün ana vətəni elə hala salıblar ki, sayı-hesabı bilinməyən insanlar - cavanından tutmuş qocasına kimi - hamı "anasını" tərk etməyə, baş götürüb qərib-qərib ölkələrə qaçmağa məcburdur... Adamlar ölkədən ilan ağzından qurtulan qurbağa kimi qaçırlar.

Nöyütü fontan vuran, qazı dünyaya fısıltı-mışıltı salan cahcəlallı bir səltənətin vətəndaşları nəyə görə öz doğma vətənindən pərən-pərən düşməlidir axı?..

Bunu istəyənlər, ya buna bais olanlar kimlərdi və nədən belə edirlər?..

Məmləkət əhlini təngə gətirmək, səbr kasasını daşırmaq, nəhayət hamını və hər kəsi "optovoy" şəkildə hər şeydən iyrəndirmək... Məncə, bu, ölkəni "çayda balıq yan gedər..." prinsipiylə idarə edən "bərkgedənlər" fəsilsinə aid olanların xəstə strategiyasıdır.

Xalqı hər şeydən yormaq, bezdirmək, iyrəndirmək bacarığı, həqiqətən fenomenal, lap Ginnesin kitabına düşməli "kreativ" bir zaddı.

Zaman-zaman, özü də göz görə-görə xalqın özgüvənlik duyğusunu korroziyaya uğratdılar, bizləri bir-birimizlə didişməyə sövq etdilər... İnsanları olan-qalan bir cüt, iki tək ziyalısından, mütərəqqi düşüncə sahiblərindən çəkindirdilər, dişimiz, dırnağımız, qanımızla qazandığımız Dövlətçiliyimizdən rəncidə saldılar. Demokratik dəyişikliklərə bəslənən ümüdləri çiliklədilər, keçirilən bütün seçkiləri total və həyasız şəkildə saxtalaşdırıb xalqın mübarizə ruhunu param-parça elədilər. İnformasiya axınına, xaltası əllərində olan sosial platformalara, televiziya verilişlərinə yalan və qərəz qatıb, bizləri adət-ənənələrimizdən, mental dəyərlərdən, xeyir-şərimizdən, milli əxlaqımızdan, keçmişimizdən çiyrəndirdilər. Əsil mollaları, axundları, hacıları, İslam alimlərini, üləmaları gülüş hədəfinə çevirib, bizləri dindən, imandan, inancdan, ümiddən uzaqlaşdırmaq üçün tərbiyəsiz cəhdlər göstərdilər...



Zaman-zaman, özü də göz görə-görə xalqın özgüvənlik duyğusunu korroziyaya uğratdılar, bizləri bir-birimizlə didişməyə sövq etdilər... İnsanları olan-qalan bir cüt, iki tək ziyalısından, mütərəqqi düşüncə sahiblərindən çəkindirdilər, dişimiz, dırnağımız, qanımızla qazandığımız Dövlətçiliyimizdən rəncidə saldılar. Demokratik dəyişikliklərə bəslənən ümüdləri çiliklədilər, keçirilən bütün seçkiləri total və həyasız şəkildə saxtalaşdırıb xalqın mübarizə ruhunu param-parça elədilər...

Bir sözlə, ərk etməli, inanmalı, bel bağlamalı, sevməli, əlindən-ətəyindən tutub birgə yol getməli, müqəddəs, ya qeyri-müqəddəs, kim və nə vardısa, bizləri onlardan kənarda saxlamağa çalışdılar. Və bütün bunlarla, biçarə xalqı pozitivləri neqativlərə çevirmək prosesinin aktiv iştirakçılarına çevirmək məqsədi güddülər.

Bacardılarmı? Əlbəttə, qismən də olsa istədiklərinə nail oldular...

Amma, deyirəm, nə yaxşı ki, Allah-təala insan övladını YARADICI xəlq edib. İnsan özünü dərk edəndən ölənə qədər nələrsə qurur-quraşdırır, yaradır. Yol çəkir, su çəkir, ev tikir, ağac əkir, toxum səpir, dünyaya övlad gətirir, elmi kəşflər edir, səmimiyyət, xeyirxahlıq, humanizm axtarışında olur...

Amma, təəssüflər ki, bəni-insan övladının xislətində həm də DAĞIDICILIQ var. Müharibələr, təbiətə vandal münasibət, kin-küdurət, ədavət toxumu səpmək şakəri, komformist istək, nəfs, əndazəsiz "eqo" və "dediyim dedikdi" hikkəsi... Bu qüsurlu maraq və mənfəətlər naminə min bir hoqqadan çıxmaq, hakimiyyət, şan-şöhrət, var-dövlər uğrunda cinayətlər törətmək, günahsız insanların qanını axıtmaq, sadizm, yaltaqlıq, riyakarlıq və sairə.

Təbii ki, bu kontekstdə bizi maraqlandıran birincilər olmalıdır - YARADICI insanlar. Anlamalıyıq ki, bu insanları, qətiyyən ikincilərin güdazına verməк olmaz; nəyin bahasına olursa-olsun, onlar pis insanların merkantil və pis niyyətlərindən qorunmalıdır. Əks-təqdirdə, YARADICI insan öz elədiyinə şübhəylə yanaşmağa başlar, - bezər, təngə gələr, iyrənər...

Nəticədə, ləyaqətlə, vicdanla, dürüst və şərəflə yaşayan adamın həyatı yalnız statistikadan ibarət olar, yəni...TALEYƏ çevrilməz!..

Taleyə çevrilməyən insan ömrü isə, əlbəttə ki, faciədir...

Hazırda bu sətirləri yazıram...amma səhər bankın qabağında: "-Vallah, billah, qatıq ağdır!" deyə fəryad eləyən həmin o yaşlı adam yadımdan çıxmır...kövrəlirəm...

Görən, o, niyə belə deyirdi axı?..

Yəni, görən, doğrudanmı qatıq qaradır?..

**Eldəniz QULİYEV**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# “Hər bir cəmiyyətin asılı olduğu şeylər dəyişir”

## Mirşahin Əlizadə: “Bizdəki asılılıqların daha çoxu duyğusal asılılıqlardan irəli gəlir”

**Azərbaycanda pis vərdişlərin qaynağı sayılan asılılıq problemi pik həddə çatıb. Bu, özünü narkomaniya, iqromaniya, komputer oyunlarından asılılıqlarda və s. daha çox göstərir. Bu mövzunu klinik psixoloq, Dünya Yaddaş Olimpiadaları Federasiyasının üzvü Mirşahin Əlizadə ilə müzakirə etdik.**

*(Əvvəli ötən sayımızda)*

***- Sizcə, digər ölkələrdəki toplumları müqayisə etsək, bu gün bizdə insanların asılılıq faizi çoxdurmu? Əgər bu göstərici çoxdursa, səbəbi nədir?***

- Tam olaraq statistika verə bilməyəcəyəm, amma öz təcrübələrimdən, araşdırmalarımdan yola çıxaraq deyə bilərəm ki, hər bir cəmiyyətin asılı olduğu şeylər dəyişir. Yəni elə cəmiyyətlər var ki, orada duyğusal asılılıq var. Elə cəmiyyətlər var ki, orada fiziki asılılıqlar daha çox önə çıxır. Bizdəki asılılıqların daha çoxu duyğusal asılılıqlardan irəli gəlir. Məsələn, sevdikləri insanlarla qarşılaşdıqda istər qadın, istər kişi olsun, həmin insandan asılı vəziyyətə gəlirlər. Həmin insanla sevgi, məhəbbət yaşayırlar. O problemlər insanları gətirib alkoqolizmə, narkomaniyaya da gətirib çıxara bilir. Bunun kökündə daha çox sevgisizlik dayana bilir.

***- Yəni bunun qaynağı ailədən, uşaqların ailədə sevgi ala bilməməsindən gəlir.***

- Təbii ki. Çünki biz bu şeyləri ailədən görürük. Bir insan öz valideynindən sevgi necə görübsə, sevgini necə alıbsa, o da gələcəkdə sevgini alıb-verəndə eyni dinamikləri, eyni paternləri işlədir. Bu, nə qədər səthi görünsə də, kökləri çox tarixi dərinliklərə qədər gedib çıxa bilir. Tarixə baxsaq, görərik ki, biz həmişə döyüşkən bir xalq olmuşuq. Bizim xalqın kişiləri daha çox səfərlərdə olub və birlikdə çox zaman keçirə bilmədikləri üçün ailəyə yetərli qədər sevgi göstərə bilməyiblər. Yəni həmişə səfərlərə getmişik, fəth etmişik, işğalçılardan qorumaq üçün daha çox müharibələrdə olmuşuq - nəticədə ailəyə yetərli qayğı, sevgi göstərə bilmədiyimiz üçün yetərli sevgi ala bilməyən uşaqlar gələcəkdə özləri valideyn olduqda öz natamam sevgisizliklərini də natamam şəkildə öz uşaqlarına ötürüblər. Bu da nəsildən nəslə ötürülə-ötürülə indiki zamanlara qədər gəlib çıxa bilib.



***- Çox maraqlıdır. Siz qeyd etdiniz ki, yalnız qumar, narkotik asılılığı olmur, telefon asılılığı, kompüter oyunlarından asılılıq, insandan asılılıq, sosial şəbəkə asılılığı və s. də olur. Sizcə, bu problemlərin qarşısını almaq üçün cəmiyyətin sağlamlaşdırılması ilə bağlı dövlət proqramları olmalıdırmı?***

- Məncə, olmalıdır.

***- Yəni geniş ictimai miqyasda?***

- Təbii ki. Zatən narkomaniya ilə mübarizə aparılır. Narkomaniya ilə mübarizənin də kökünə baxmaq lazımdır. Yəni insanları sadəcə “narkomaniyadan uzaq dur” deməklə narkomaniyadan uzaqlaşdırmaq işin fərqindəlik hissəsidir. İşin irəli səviyyələrində isə artıq bilmək lazımdır ki, adam nə üçün bu problemə gəlib çıxır, nə üçün narkomaniyaya düçar olur, nə üçün içki içir, nə üçün iqromaniyadan əziyyət çəkir... Bizim xilas edə biləcəyimiz indiki zamandır. Biz indini dəyişə bilirik, keçmişlə onsuz da işimiz bitib, keçmiş keçmişdə qalıb, gələcəyi də müəyyən edən şey indiki zamandır. Söhbətin əvvəlində də vurğuladıq ki, insanlar yetəri qədər duyğusal aclıqları olanda, sevgi görməyəndə, başqa özgüvənsizlik yaşayanda gələcəkdə nədənsə asılı vəziyyətə düşə bilirlər. Deməli, hal-hazırda bunun fərqindəyiksə, indiki nəsli elə yetişdirməliyik ki, həmin insanlarda o problemlər olmasın, onlar da gələcəkdə sağlam nəsil formalaşdıra bilsinlər. Ona görə də gənclər arasında intellektual müsabiqələrin keçirilməsi, uğur yönümlü, hədəf yönümlü çalışmaların olması, yəni gənclərin bir hədəfinin olması lazımdır. İnsan hədəfsiz olanda hər cür lazımsız fikirlərlə beyin dolur. Sizə maraqlı bir misal çəkəcəyəm. Bir gün bir professor gəlir sinfə, bir əlində torba, bir əlində banka olur. Bankanı qoyur masanın üstünə, tələbələri maraqla baxırlar ki, professor nə edəcək. Profesor topları bankanın içinə doldurur, sonra tələbələrdən soruşur ki. Sizcə bu banka doludur ya boşdur? Tələbələr deyir ki, doludur. Sonra professor torbadan çınqıl daşları çıxardır, tökür bankanın içinə. Sonra sual verir ki, banka doludur, ya boşdur? Tələbələr deyir ki, doludur. Sonra professor qum dənəciklərini tökür bankanın içinə, bütün araları doldurur. Yenə eyni sualı soruşur tələbələrdən, tələbələr də eyni cavabı verir. Professor ən sonda bankanın içinə şərab tökür, deyir ki, indi deyin görüm banka doludur ya boşdur. Tələbələr hamısı deyir ki, indi doludur. Professor sonra izah edir ki, indi baxın, biz buraya tenis toplarını doldurduq, çınqıl daşlarını qoyduq, qum qoyduq, sonra su qoyduq. Biz bankanın içinə birinci topları qoyduq - bu əsas önəmli şeyləri təmsil edir - ailəmizi, karyeramızı, hədəflərimizi, işimizi. Çınqıl daşları ikinci dərəcəli şeyləri təmsil edir. Qum dənələri lazımsız şeyləri təmsil edir. Əgər siz bankanı birinci qumla doldursanız, orada sizin üçün önəmli olan şeylərə məsələn tenis topuna ya da çınqıl daşlarına yer qalmayacaq. Ancaq birinci növbədə bankanı tenis topları ilə doldursanız, hamısına yer çatacaq, lazımsız şeylərə belə. Tələbələr sual verirlər ki, bəs onda mayenin rolu nədir? Professor deyir ki, həyatınız hər nə qədər önəmli işlərlə dolu olsa da, yoldaşlarınız ilə, dostlarınız ilə zövq almaq, istirahət etmək üçün zamanınız olacaq.

Yəni insan həyatında önəmli şeylərə yer verdiyi zaman lazımsız şeylərə onsuz da yer qalmır. Lazımsız şeylərə yer verildiyi zaman önəmli şeylərə yer qalmır. Ona görə də biz həyatımızda strategiya qurmalıyıq, sağam cəmiyyət üçün insanlar, gənclər, uşaqlar, valideynləri maarifləndirmək lazımdır. Onlar bilsinlər ki, hədəfsiz həyat mənasız bir həyatdır. Hədəfsiz yaşayan bir insanın həyatında narkomaniya da ola bilər, alkoqolizm də ola bilər, iqromaniya da ola bilər. Bir çox şeylər də ola bilər. Biz hal-hazırda bununla bağlı işlər görürük, təlimlər keçiririk. Mən şəxsən universitetlərə gedirəm. Universitetlərdə görüşlərim, seminarlarım olur, bu mövzularda danışırıq, yaddaş müsabiqələri edirik. Çalışırıq ki, olimpiadaları ölkəmizdə də təşkil edək. Düşünürük ki, gələcəyimiz üçün bunlar fayda verəcək addımlardır. Arzumuz da budur ki, bu işlərimizi genişləndirək. Dövlətimizə, xalqımıza, millətimizə fayda verək. Belə bir insan ola bilək.

“...O problemlər insanları gətirib alkoqolizmə, narkomaniyaya da gətirib çıxara bilir. Bunun kökündə daha çox sevgisizlik dayana bilir”



“Hədəfsiz yaşayan bir insanın həyatında narkomaniya da, alkoqolizm də, iqromaniya da ola bilər”



**Söhbətləşdi:**
**Ülviyyə ŞÜKÜROVA**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur



# Korrupsioner məmurlar nə üçün "toxunulmaz" qalır?

## Kredit, aliment borcu olanlar həbsdə, dövləti talayanlar isə azadlıqda olmalıdır?

3-5 gündən bir mətbuatda bu cür xəbərlərə rast gəlirik: borcu olan 137 nəfər saxlanıldı; borcu olan 50 nəfər saxlanıldı; borcu olan daha 30 nəfər saxlanıldı və sair. Bu adamlar əsasən banklara, kredit təşkilatlarına borcu, aliment borcu, vergi və digər borcları olan, bu borcları ödəyə bilməyən sadə, imkansız, sıravi vətəndaşlardır.

...Ramiz Mehdiyev, Hacıbala Abutalıbov, "qaçqınkom" Əli Həsənov, Zakir Qaralov, Ziya Məmmədov, Əhməd Əhmədzadə, Etibar Pirverdiyev, Abid Şərifov və saydıqca sırası bitməyən milyonçu, hətta milyarder sabiq məmurlar var ki, nə barələrində istintaq aparılıb, nə fəaliyyəti yoxlanılıb, nə də varidatlarının mənbəyi soruşulub...



Yaxud, son zamanlar öz(!) meyvə-tərəvəzini xarici ölkələrə çıxarıb satan, lakin əldə etdiyi öz(!) pulunu ölkəyə qaytarmayan fermerlərin kütləvi həbsinə dair rəsmi məlumatlar yayılır. Qanunvericiliklə doğrudan da, həmin vəsaitlər rəsmiləşdirilməli və yalnız gömrük prosedurlarına uyğu şəkildə ölkədən çıxarılmalıdır. Fakt isə budur ki, bu pozuntunu bilərəkdən, yaxud bilmədən edən fermerlər kütləvi olaraq hətta bir neçə minlik meyvə-tərəvəzə görə istintaqa cəlb edilir, həbs olunur, cərimələnir və s. Demək istədiyimiz odur ki, maliyyə nizam-intizamına qəsdən, ya da bilmədən riayət etməyən, banka, alimentə, vergiyə borcunu ödəməkdə çətinlik çəkən vətəndaş "ayağını bir addım sağa-sola qoyan kimi" saxlanılır, həbs olunur, olanı-qalanı müsadirə edilir...

Amma eyni münasibət nədənsə bir çox hallarda dövlət büdcəsini milyonlarla, on milyonlarla, yüz milyonlarla məbləğdə talayan, korrupsiya, rüşvətlə məşğul olan və hətta bu cinayət əməlləri istintaq, məhkəmə tərəfindən sübut olunan, üstəlik bunu özləri də etiraf edən sabiq məmurlara, nazirlərə göstərilmir.

Məsələn, bir neçə gün əvvəl mətbuatda AMEA Prezdenti, akademik İsa Həbibbəylinin oğlu Səhət Həbibbəylinin istintaqa ifadəsi dərc edildi. Məlum oldu ki, akademikin gömrük rəsisi olan oğlu Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbova hər il 40 milyon dollara yaxın pul çatdırırmış. Hələ bu, boynuna aldığıdır: "2018-ci ildə mən sədr təyin olunanda aylıq 2 milyon 500 min dollar olmaqla, ilin sonuna qədər iki aya cəmi 5 milyon dollar çatdırdım. 2019-cu ildə də aylıq 2 milyon 500 min dollardan bir il üçün 30 milyon dollar vermişəm. 2020-ci ildə aylıq 2 milyon 800 min dollar oldu, illik cəmi 34 milyon dollar çatdırmışam. 2021-ci ildə isə aylıq təxminən 3 milyon 200 min dollardan olmaqla, bir il üçün 38 milyon 400 min dollar çatdırmışam. 2022-ci ildə artıq ayda 3 milyon 300 min idi. 10 ay ərzində 33 milyon yığılmışdı. Hamısı da çatdırılıb".

Bu, üst-üstə 100 milyonlarla dolların təkcə S.Həbibbəylinin sədrliyi dövründə - 3 ildə V.Talıbova ötürülməsi deməkdir. Əlbəttə ki, bundan akademikin oğluna da az pul çatmayıb. Talıbov isə 3 il yox, 1995-ci ildən 2022-ci ilə qədər - 27 il(!) Naxçıvan Ali Məclisinin sədri olub. Hələ bu, təkcə gömrükdən yığılanlardır. Üstəgəl büdcədən talananları, rüşvəti, hüquq-mühafizə orqanlarının yığdıqlarını və s. demirik. Amma yuxarıda qeyd edilən dırma aparılanlar, cinayət faktları rəsmən üzə çıxarılanlardır. Bundan əlavə Ramiz Mehdiyev, Hacıbala Abutalıbov, "qaçqınkom" Əli Həsənov, Zakir Qaralov, Ziya Məmmədov, Əhməd Əhmədzadə, Etibar Pirverdiyev, Abid Şərifov və saydıqca sırası bitməyən milyonçu, hətta milyarder sabiq məmurlar var ki, nə barələrində istintaq aparılıb, nə fəaliyyəti yoxlanılıb, nə də varidatlarının mənbəyi soruşulub.

Əvəzində, imkansızlıqdan banka, vergiyə, DSMF-ə borcu olanlar saxlanılır, sorğu-suala çəkilir, hər qəpikləri güdülür, işığa borcu olnın işığı, qaza borcu olanın qazı, suya borcu olanın suyu kəsilirg Qanun tələb edirsə, qoy kəsilsin. Amma bu qanun niyə əhalinin imkansız qisminə tətbiq edilməlidir, yüksək məmur təbəqəsi isə bundan yayınmalıdır? Bu nə ayrıseçkilikdir, nəyin siqnalı, ismarıcıdır?

ifadələrə, etiraflara baxmayaraq, bu gün Vasif Talıbov da, Səhət Həbibbəyli də azadlıqda, öz keflərindədir...

Sabiq MTN başçısı Eldar Mahmudovun əsas fiqur olduğu "MTN işi", sabiq Rabitə naziri Əli Abbasovun baş rolda olduğu "Rabitə işi", eləcə də sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin, sabiq XİN başçısı Elmar Məmmədyarovun nazirliklərindəki korupsiya faktları ilə bağlı aparılan istintaqlar, həbslər, bu rəhbər şəxslərə qarşı rəsmi ifadələr və s. sonda onunla nəticələndi ki, həmin bu qurumlarda kimlərsə həbs olundu, 3-5 il yatıb çıxdı, kimlərsə müxtəlif məlum yollarla canını həbsdən qurtardı, əsas rəhbər məmurlara isə "gözün üstə qaşın var" deyən olmadı. Həmin adamlar bu gün də öz "kefində-damağındadır".

Hələ bunlar rəhbərlik etdikləri qurumlarda pis-yaxşı araş-

Bundan çoxları, o cümlədən bugünkü gənclik belə nəticə çıxarır ki, daha böyük, iri miqyaslı oğru olmalısan ki, həbs edilməyəsən, böyük oğrusansa azadlıqda və kefdə, xırda-para borcu olub, bunu ödəyə bilməyən balaca adamsansa həbsdə olmalısan! Əgər belə davam edəcəksə, yaxın gələcəkdə hüquqi dövlətə, ədalətə, məhkəmələrə, hüquq-mühafizə orqanlarına və s. inamın bərpası üfüqdə də görünməyəcək...

**Cəlal MƏMMƏDOV**

# Mətin Mirzəyə yeni vəzifə verildi

**Uzun illərdir diplomatiya sahəsində çalışan Mətin Mirzə yeni vəzifəyə təyin olunub. Hurriyyet.az xəbər verir ki, o, bir müddət öncə Azərbaycanın İrandakı Səfirliyində müşavir vəzifəsində işə başlayıb.**

Məlumatı Mətin Mirzənin özü də təsdiqləyib. O bu günlərdə səfirliyin müşaviri kimi



Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin İranda keçirdiyi görüşlərdə də iştirak edib.

Xatırladaq ki, Mətin Mirzə mərhum Xalq artisti, keçmiş millət vəkili Mikayıl Mirzənin oğludur. O, 2000-ci illərin əvvələrində XİN-in mətbuat katibi olub, 2006-cı ildə mətbuat xidmətindən gedəndən sonra XİNdə digər vəzifələrdə çalışıb.

# Hərbi xidmətdə güllə yarası aldı, əmək qabiliyyətini itirdi, əlillik dərəcəsi verilmir

## Ucar sakini Məhəmmədəli Qasımov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən şikayətçidir




**Ucar rayonu, Pirkənd kənd sakini Qasımov Məhəmmədəli Rafik oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**"Hörmətli Prezident!**

Bu şikayətimdə yazıb bildirirəm ki, mən hərbi xidmət zamanı güllə yarası almışam. Nəticədə sol böyrəyim, dalağım və bağırsaqlarımdan 30 sm kəsilərək götürülüb. Buna görə əmək qabiliyyətimi itirsəm də, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi mənə əlillik dərəcəsi təyin edilməsindən qanunsuz olaraq imtina edib.

Belə ki, 15.01.2022-ci il tarixdə həqiqi hərbi xidmətə aparılmışam. Laçında yerləşən N saylı hərbi hissədə hərbi xidmət keçmişəm. Hərbi xidmətimi başa vurmağıma 10 gün qalmış - 20.06.2023-cü il tarixdə postda olan zaman əsgər yoldaşımın ehtiyatsızlıqdan əlindən silah açılması nəticəsində güllə (5x45) yarası aldım. Bundan sonra hərbi hospitala çatdırılıb, müxtəlif vaxtlarda 2 dəfə cərrahiyyə əməliyyatı olundum. Sol böyrəyim, dalağım və bağırsağımdan 30 sm kəsilərək götürüldü. Uzun müddət "kalastoma" ilə hərəkət etmişəm.

Hərbi xidmətimin müddəti bitsə də, 40 gün hərbi hospitalda stasionar müalicə olundum. Aldığım ağır xəsarətə görə dinc və müharibə dövründə hərbiyə yararsız olmuşam. Buna dair sənədlərdə də qeyd edilib ki, əmək qabiliyyətimi itirmişəm. Adi əşyanı belə qaldıra bilmirəm.

Ağır yaralanıb, xəstə olub əmək qabiliyyətimi itirməyimə baxmayaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyimənə əlillik dərəcəsi təyin olunmasından qanunsuz imtina edilib.

Mən bu imtinanı qanunsuzluq və özbaşınalıq hesab edirəm. Çünki mən kiməsə rüşvət verib xəstəlik sənədi almamışam. Mənim xəstəliyim saxta, yalan deyil. Mən güllə yarası alıb, ağır yaralanmışam, bir böyrəyim, dalağım və bağırsağımın bir hissəsi cərrahiyyə edilərək götürülüb, yarıcan qalmışam. Yeriyəndə halsız oluram, əmək qabiliyyətim yox dərəcəsindədir. Bu səbəbdən, mənə qeyd-şərtsiz əlillik dərəcəsi təyin olunmalıdır.

Sizdən xahiş edirəm ki, şikayətmi obyektiv araşdırılmasına və mənə qanunu qaydada əlillik dərəcəsi təyin olunmasına köməklik göstərəsiniz".

**Jalə FAMİLQIZI**

# "Mənə heyvan verməmək üçün əllərindən gələni edirlər"

## Samux sakini Dövlət Məşğulluq Agentliyinin səlahiyyətli şəxslərindən şikayətçidir...

**Samux rayonu, Qarayeri qəsəbə sakini Kazımov Xaliq Abbas oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, 4 ildi Dövlət Məşğulluq Agentliyinə müraciət etsə də, ona heyvan verməmək üçün əllərindən gələni edirlər:**

"Mən, Kazımov Xaliq Abbas oğlu yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

4 ildir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyindən cavab ala bilmirəm. Gəlib baxış keçirib, şəraitimlə tanış olublar. Sonra bildirdilər ki, sən gəlirlərini düzgün qeyd etməmisən. Hansı gəlirdən söhbət gedir, onu bilmirəm. Mənə imtina




gəlməyib, sadəcə telefon vasitəsilə bildiriblər ki, gəlirlərimi düzgün qeyd etməmişəm. Halbuki, həyətimdə tut ağacı belə, yoxdur".

Məsələ ilə bağlı Dövlət Məşğulluq İdarəsinin mətbuat katibi Əsmər Nəcməddinqızı ilə əlaqə saxladıq. O, bildirdi ki, Samux rayon sakini Kazımov Xaliq Abbas oğlunun müraciəti araşdırılıb: "Vətəndaş qoyunçuluq təsərrüfatı zərfi üzrə özünüməşğulluq proqramına müraciət edib. 05.12.2024-cü il tarixdə onun şəraitinin qiymətləndirilməsi məqsədilə ilkin monitorinq təşkil edilib. Monitorinq komissiyasının rəyinə əsasən X.Kazımov gəlirlərini düzgün bildirmədiyi üçün proqrama cəlbi məqbul hesab edilməyib".

**Jalə FAMİLQIZI**

# Ucar sakini DOST mərkəzindən şikayətçidir




**Ucar rayonu, Oğuz küçə sakini Əliyev Kənan Yusifəli oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil. Şikayətçi iddia edir ki, onu DOST mərkəzindən qanunsuz olaraq işdən çıxarıblar:**

"Mən, Əliyev Kənan Yusifəli oğlu, yazaraq bildirirəm ki, müqaviləm bitdiyi üçün məni DOST mərkəzindən uzaqlaşdırdılar. Yenidən müraciət etməyimə isə imkan vermədilər.

Qeyd edim ki, məni 29.11.2024-ci il tarixində DOST İş Mərkəzindən işdən azad ediblər. İki azyaşlı övladım var, kirayədə yaşayıram. Başqa yerdən gəlirim yoxdur. Ordan aldığım əmək haqqı ilə ailəmi dolandırırdım. Hazırda vəziyyətim çox pisdir, maddi imkanım acınacaqlıdır.

Məsələ ilə bağlı bir çox qurumlara yazmışam. Lakin heç bir köməklik olunmadı. Müqaviləm bitib deyə, məni qanunsuz yerə işdən uzaqlaşdırdılar.

Mən sizin sayt vasitəsilə səlahiyyətli qurumlardan xahiş edirəm, mənə kömək edin, bir işlə təmin olunum".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Ötən il Sumqayıtda 5 min 695 narkoloji xəstə qeydiyyata alınıb



**Sumqayıt şəhərində rəsmi qeydiyyatda olan narkotik istifadəçilərinin sayı açıqlanıb. Sumqayıt şəhər Narkoloji Dispanserdən bildirilib ki, hazırda müəssisədə qeydiyyatda olan narkoloji xəstələrin sayı 5 min 695 nəfərdir.**

Qeyd olunub ki, narkotik istifadəçilərinin sayı isə 4 min 145 nəfərdir. Onlardan 97-si qadındır.

Sumqayıt şəhər Narkoloji Dispanserində qeydiyyatda olan alkoqolizm xəstələrinin sayı isə 1 550 nəfərdir. Onlardan 24-ü zərif cinsin nümayəndəsidir. Bildirilib ki, narkoloji xəstələrin və narkotik istifadəçilərinin əksəriyyəti 20-45 yaş arasında olan şəxslərdir.

# Tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtı uzadıldı



**COVID-19-la mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtı uzadılıb. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.**

Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə qərara dəyişiklik edilib. Dəyişikliklə COVID-19-la mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti aprel ayına qədər uzadılıb.

# Azərbaycan və Rusiya arasında "soyuq savaş"

**AZAL-a məxsus təyyarənin Aktauda qəzaya uğramasından sonra Rusiya ilə münasibətlər gərginləşmə istiqamətində inkiaf etməkdədir. Ukrayna ilə savaş gedərkən Moskva nisbi sakitlik fonunu saxlamağa cəhd edirır. Əslində isə Kreml içindən qaynayır. Çünki bir vaxtlar zorən tərkibinə qatdığı, SSRİ-nin məzarlığından müstəqil dövlət kimi ayağa qalxan keçmiş subyektləri ilə bərabər müstəvidə münasibətlər qurmağı həzm edə bilmir.**



## Moskva "Aktau qəzası"nın "sirr pərdəsi"nin açılmasından niyə qorxur?

Moskva keçmiş 15 subyektinə özünün "şovinist eynəyi"ndən baxmağa davam edir. Kremlin dövlətlərarası müstəvidə qəbuledilməz olan, digərlərinə qarşı özünü saymamazlıqda büruzə verən ikrah doğuran mahiyyəti, başqalarına yuxarıdan aşağı baxmaq maniyası, güc dilində danışmaq şakəri Prezident Əliyevin ifşaedici çıxışlarında tarixi keçmişdən gələn faktları sadalaması zamanı da dəfələrlə ortaya çıxır. Bu sadalalan faktlar ardıcıllığını "Moskvanı ifşa" da adlandırmaq olar. Prezidentin "Biz Zəngəzuru unutmamışıq" ifadəsinin, Zəngəzurun Azərbaycandan alınıb qondarma Ermənistana peşkəş edilməsinin müəllifinin keçmiş SSRİ olmasını xüsusi vurğulamasının, bu aktın Azərbaycan xalqına qarşı cinayət olmasının, bunun birinci və sonuncu cinayət olmamasının, ərazimzdə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının, ermənilərin çar Rusiyası tərəfindən ərazimizə köçürülməsinin, bundan əvvəl isə təhlükəsizlik zəmanəti verilmiş Qarabağ xanının öldürülməsinin və s. Kremlin üzünə çırpılaraq səsləndirilməsi onu göstərir ki, dövlət başçısı yenidən konturları cızılan siyasi şəkillənmədə mövqeyini bəlli edir. Yəni keçmiş keçmişdə qalsa da unudulmayıb, ondan gərəkli dərs çıxarılacaq. İndi isə keçək bəzi nünaslara ardıcıllıqla göz atılmasına.

Bu səhərin diqqətçəkən xəbərləri içində Azərbaycanın Rusiya ilə həmsərhəd rayonlarında əməliyyatlar aparması oldu. Məlumatda bildirilir ki, Azərbaycanın Rusiya ilə həmsərhəd rayonlarının ərazisində "Sərhəd-sipər" kod adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər həyata keçirilir. Əməliyyatlar Azərbaycan və Rusiya Federasiyası daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən həyata keçirilir.

Həftə ərzində keçiriləcək əməliyyat tədbirləri ilə əlaqədar Quba, Qusar, Xaçmaz, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarında müvafiq yerlərdə polis postları yaradılıb.

Əməliyyatların əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icrasından ibarətdir. Fevralın 3-dən 10-dək kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər həyata keçiriləcək.

Məlumdur ki, Moskvanın "özünəməxsus" cavab tərzi var. Buna Kremlin rəsmi səviyyədə deyə bilmədiklərini media müstəvisində "izhar etmək", yaxud digər metodlar - Rusiya səfirimiz Rəhman Mustafayevin Moskvadakı XİN-ə çağırılması və ona Azərbaycan mediasında Rusiya əleyhinə abhavanın Kremlin ürəyincə olmamasının çatdırılması və s. aiddir.

Kremlin öz KİV-lərində səsləndirdiyi "ərköyün ədasıyla üzr gözləntiləri"nə gəlincə, bunun cavabı Azərbaycan mediası vasitəsilə gərəkli şəkildə verildi. Səfirimizin Rusiya XİN-ə çağırılmasına isə rus səfiri Mixail Yevdokimovun Azərbaycan XİN-ə çağırılması ilə qarşılıq verildi. Eləcə də rus mediasında rəsmi Bakı əleyhinə ürəkbulandıran yazıların getməsi iradı "Kremlə cavab" silsiləsindən əkscavab kimi yerinə düşdü. Bakıdakı "rus evi" medianın diliylə özünün əsl mahiyyətinin ifşası kimi "rus kəşfiyyat evi" adlandrıldı.

Yuxarıda deyildiyi kimi, Prezident Kremlə mesaj qəbilindən bir neçə gün əvvəl "Biz Zəngəzuru unutmamışıq" açıqlamsını verdi. Bu, öz yerində. Bəs Moskva Azərbaycana qarşı öz media məkanında apardığı qarayaxma kampaniyasında nəyə ümid edirdi? Azərbaycanın xoflanıb geri çəkiləcəyinə? Yoxsa müqavimətdən vaz keçib durumla barışacağına?

Moskva hesab edirdi ki, Aktau qəzası zamanla unudulacaq, gündəmdən çıxacaq. Amma belə olmadı.

Burada bir haşiyə çıxıb, Bakının Moskvaya cavabları silsiləsindən daha bir məqamı qeyd edə bilərik. Bu gün də daxil olmaqla, Həştərxan üzərində hava məkanının vaxtaşırı bağlanması ilə əlaqədar "Azərbaycan Hava Yolları" (AZAL) uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə Bakı-Həştərxan-Bakı marşrutu üzrə bütün uçuşları qeyri-müəyyən müddətə dayandırır. Aviaşirkətdən verilən məlumata görə, bu marşrut üzrə bilet alan sərnişinlər cərimə ödəmədən pulun tam qaytarılması və ya marşrutun dəyişdirilməsi üçün müraciət edə bilərlər.

Qeyd etdiyimiz kimi, rus mediasına bizim mediamızda verilən cavab və s.-dən sonra fevralın 3-də Azərbaycanın Rusiya ilə sərhəd şimal rayonlarında əməliyyat-axtarış və profilaktik tədbirlər həyata keçirildi. Məlumdur ki, ölkəmizi içəridən silkələmək və çaxnaşma salmaq üçün Rusiyanın xüsusi xidmət orqanlarının idarə etdiyi "Sadval", "Meşə qardaşları" adlı separatçı layihələr illərdir ki, mövcuddur. Maraqlıdır, Bakının Aktau qəzasına görə vurulan maddi və mənəvi zərərin etirafının yer aldığı yetərli üzrxahlıq ifadəsi səslənmir, günahkar tərəfin qəza qurbanlarına dəymiş ziyanın ödənilməsi tələbi eşitməməzliyə vurulur, bu bəs deyilmiş kimi, terrorçu-təxribatçı qruplaşmanın ünsürləri hansısa qüvvənin işarəsi ilə qımıldanmağa başlayır. Bu o vaxt baş verir ki, "Embraer 190" təyyarəsinin son anlarının qara qutunun yaddaşına həkk edilənlər nəhayət ictimai şəkildə açıqlanacaq. Nəhayət ki, Azərbaycan tərəfinin qəzaya dair narazılıqları hüquq müstəvisində əksini tapmalı, günahkar tərəf haqqıyla səhlənkarlıqdan, məsuliyyətsizlikdən, yaxud qəsdən törədilən terror aktına görə cavab verməli olacaq. Belə anlaşılır ki, müqəssir tərəf məsuliyyətdən qaçmaq üçün əks-hücuma "stavka edir", yəni rəsmi Bakını susdurmaq, Aktau qəzasına görə bizi Rusiyanın üstünə getməkdən daşındırmaq üçün şimal rayonlarımızda köstəbək yuvalarındakı kimi torpaq altında gizlənmiş hüceyrələrinə "özlərini göstərmək" komandası verir. Görünür, mahiyyəti şovinizm olan Moskvadan sağlam düşüncə gözləmək əbəsdir. İmperiya nostalgiyası ilə yaşayan, şovinist mahiyyətindən arına bilməyən şimal qonşumuzun şovinist ritorikası ilə danışacağı hər zaman gözləniləndir, nə qədər ki, o layiqli taleyinə qovuşmayıb.

Digər bir nüans - Kreml Azərbaycanda təxribat üçün münbit şəraiti necə əldə edir? Axı Azərbaycan onu təşkil edən, zənginləşdirən etnik rəngarəngliyi ilə dünyaya nümunə olan nadir tolerant ölkələrdəndir. Necə olur ki, ölkəmizdə Rusiyanın və ya digər kənar qüvvənin işarəsi ilə hərəkətlənən təxribatçı hüceyrələr meydana gələ, yetişə bilir? Bunun səbəbi xaricdən müdaxilədir, ya ölkədaxili məsələlərdən qaynaqlanır? Əgər nəzərə alsaq ki, bu gün əməliyyatda məhv edilən şəxslər bizim vətəndaşlardır və onların bağlı olduğu mühit, ailə və ətraf var, bu həssas məqamlar üzərində düşünməyə dəyər. Xaricə ölkənin toruna düşən və bizim olan vətəndaş bu addımı atmamışdan əvvəl məsələnin qarşısını almaqdan ötrü tədbirlər görmək olmazdımı? Moskva illər öncə Azərbaycanda çaxnaşma, milli-etnik zəmində qarşıdurma yaratmağa hesablanmış "Sadval" layihəsi yaratmışdı. Bu metod Kremlə istənilən vaxt ölkələrin içindəki rıçaqları vasitəsilə daxili fonu qarışdırmaq, cəmiyyəti qarşıdurmaya sürükləmək, həmin dövlətlərin zəif damarını basmaq, onların inkişafına imkan verməmək şansı verirdi. Məqsədi təxribat olan belə təşkilatlar hər nə qədər kənardan idarə olunsalar da, onların ölkə içindəki bazası sıravi vətəndaşlar olur. Müdaxiləçi ölkə isə, necə ki, hazırda bu qüvvə Moskvanın simasında təmsil olunur, hər iki halda içini qarışdırdığı ölkənin daxili çalxalamağa nail olur. Məsələn, qarşıdurma baş tutduğu təqdirdə təxribatçı ölkəni çalxalayır. Amma qarşıdurmanın baş tutmadığı təqdirdə də müdaxiləçi ölkə vətəndaşla dövlətin arasında "yarğan" açır, vətəndaşı dövlətdən narazı salır.

Müdaxiləçi ölkə nümunəsini İranın simasında da görə bilərik - həm molla rejiminin dini təsirinə düşənlərlə, həm Tehranın ölkə daxilində formalaşdırdığı cinayətkar narkotik şəbəkəsinin, bu şəbəkənin bədbəxt edib ölümə sürüklədiyi insanlarımızın timsalında...

Qayıdaq mövzuya. Bakı ilə Moskvanın münasibətlərinin tənəzzül yaşadığı hazırkı dönəmdə ABŞ-a göz atmağa dəyər. Hansı ki, Qərb cinahının bayraqdarı ABŞ-dır və indi Ağ Ev prezident Donlad Trampın ixtiyarındadır. Xatırladaq ki, 44 günlük Qarabağ müharibəsində o getmək üzrə idi və rəsmi Bakı bu müharibəni Qərbin "səssiz razılığı" fonunda apardı, qələbə qazandı. Bu da sirr deyil ki, rəsmi Bakı ilə Prezident Trampın münasibətləri hamar və rəvan idi. Bakının 44 günlük müharibəsinə, məsələn, Parisdən fərqli olaraq Vaşinqtondan "susqun razılıq" bundan irəli gəlirdi. Aydındır ki, dünyanın nüfuz dairələrinə yenidən bölünməsi gedərkən Qərb, xüsusilə də Vaşinqton Rusiyanın keçmiş nüfuz dairəsini onun diqtəsində görmək istəmir. Moskvanın Ukrayna bataqlığında ilişib-qaldığı anda keçmiş post-sovet məkanının subyektləri hələ ki, rahat nəfəs ala bilirlər. Bəs bu nə qədər davam edəcək?

Bu sualın cavab proseslərin axarından asılıdır. Amma hazırda belə anlaşılır ki, ABŞ Ukraynaya yardımı Avropanın öhdəsinə qoyub. Vaşiqnton diqqətini iqtisadi rəqabətə davam gətirməkdə çətinlik çəkdiyi Çinin üzərinə yönəldir. Böyük ehtimalla Putinlə gözlənilən görüş gedişatında Rusiyanın Çinə qarşı ABŞ-a hansı məsafədə duracağı, hansı nöqtədə yer alacağı, bu fonda Rusiyanın keçmiş post-sovet məkanında hansı səviyyədə qalmaq istədiyi əsas mövzu olacaq.

Vaşinqton onu da nəzərə almalıdır ki, Trampın Çinə qarşı mövqe alacağı təqdirdə Rusiyaya güzəşti, ona qismən yumşaq davaranacağı versiyası ölkələri Pekinə yaxınlaşdıracaq. Necə ki, üç il əvvəl - 2022-ci ilin 20 yanvarında rus qoşunları Qazaxıstana müdaxilə etdi və tez də qovuldu. Çinin "qırımı" ilə üz-üzə qalan Moskva Qazaxıstandan necə geri çəkildisə, bu dəfə də Vaşinqton ölkələrin üzünü Pekinə çevirməsi ilə qarşılaşa bilər.

**Ülviyyə ŞÜKÜROVA**

Rusiya və Ukrayna prezidentlərinin müsahibələrindən və bəyanatlarından anlaşılır ki, onların hər ikisi Trampın atacağı addımların həlledici təsirə malik olacağını yaxşı dərk edirlər. Tarixdən məlum olduğu kimi, müharibələri öz xarakterinə və gedişinə görə dövlərlərə və mərhələlərə ayırırlar. Ukraynada gedən müharibə gözlənilənlərin əksinə xeyli uzandı və indi o, Bayden fazasından Tramp fazasına keçir.



# Tramp Putini “xilas edəcək”?

## ABŞ-Rusiya münasibətləri qarşıdakı aylarda hansı istiqamətdə inkişaf edəcək?

Hazırda Tramp ümumi fikirlər səsləndirir və tərəfləri tezliklə sülh bağlamağa çağırır. Lakin bunun necə və hansı şərtlər daxilində baş verəcəyi bəlli deyil. Biz hələlik Putin və Zelenskinin Trampın sözlərinə verdikləri reaksiyaları dinləyirik. Vladimir Putin indiyədək Baydenin siyasətini nəzərə alaraq, strategiyasını ona uyğun qurmuşdu. Bayden Rusiyanın müharibəni sürdürə bilməsi üçün təbii qaz və neft satışından pul qazanmasına əngəl törətmirdi. Ona görə də Rusiya “rəqibi taqətdən salmaq” strategiyasına üstünlük verib. Amma Donald Tramp müharibəyə Baydendən fərqli yanaşır. Hələlik, görünən odur ki, Tramp müharibənin dayandurulmasını istəyir və Rusiyanın gəlir mənbələrinə zərbə vuracağını söyləyir. Deməli, yaranmış yeni vəziyyətə uyğun olaraq, Putin mövcud strategiyasını dəyişmək və ya ona düzəlişlər etmək məcburiyyətində qalacaq. Trampın fikirlərinə Vladimir Putinin televiziya müsahibəsində verdiyi şərhə diqqətlə qulaq asandan sonra belə qənaətə gəlmək olar ki, Rusiya Prezidenti artıq yeni reallığa uyğunlaşmağa başlayıb.

Putin deyir ki, hazırkı böhranın səbəbkarı Bayden administrasiyasıdır, əgər 2020-ci ildəki seçkidə Trampın qələbəsi oğurlanmasaydı, gördüyünüz hadisələr baş verməyəcəkdi. Amma ondan soruşan yoxdur ki, Tramp 2020-ci ildə prezident seçilsəydi, Ukraynada denasifikasiya və demilitarizasiya əməliyyatını həyata keçirməyə gərək qalmayacaqdı? Əlavə olaraq, Tramp həmin dövrdə prezident olsaydı, NATO 1997-ci ilin sərhədlərinə geri çəkiləcəkdi və 2021-ci ildə isə Rusiyanın alyansa ultimatum göndərməsinə ehtiyac olmayacaqdı?

Putinin bu cür danışmasının səbəbi Trampın Rusiyaya qarşı tətbiq edəcəyi tədbirlərin daha sərt və təhlükəli olacağı qorxusundan irəli gəlir. Putin anlayır ki, Baydenlə müqayisədə Tramp onun üçün daha təhlükəlidir, çünki radikal addımlar atmaqdan çəkinmir, digər yandan isə o, Rusiyanın əsas maliyyə qaynağının mənbəyini quruda bilər. ABŞ Prezidenti Rusiyaya atəşi saxlayıb, Ukrayna ilə razılığa gəlməyi təklif edir, lakin sülhdən sonra xəritənin necə olacağını hələ ki, göstərən yoxdur. Buna baxmayraq, Trampın şübhəsiz ki, Putindən konkret istədikləri var. Əlbəttə, Putinin işğal etdiyi bütün əraziləri öz ixtiyarında saxlaması şərtiylə sülhə razılıq verəcəyi həqiqəti əks etdirmir. Rusiya Prezidenti fanatik deyil və sadəcə özünə qarşı real təhlükə görməyincə inadkarlıq nüamyiş etdirir, əks halda hər hansı təhlükə duyduqda çox ehtiyatla davranır. Müharibənin başlamasından 3 il ötməsinə baxmayaraq, Rusiya istədiyinə nail olmayıb. Amma bir şeyi unutmayaq ki, Putinə və onun yaxın komandasına qarşı ölkə içərisində müqavimət təşkil edəcək güc yoxdur, olan-qalan nə vardısa, hamısını ortadan siliblər. Navalnı kimi xalqın etiraz səsini ümumi bir məcraya yönəldə biləcək lider lazımdır. Rusiya ordusu müharibədə indiyədək təxminən 800 min əsgər itirib, lakin buna kimsə etiraz etmir, çünki döyüşlərə muzdlular gedir və onlar öldüyü təqdirdə ailələrinə böyük məbləğdə pul ödənilir. Müharibəyə isə ölkə əhalisinin kasıb təbəqəsinin nümayəndələri yollanırlar. Yaxşı pullar alan muzdluların ailələri nəyə etiraz edəcəklər ki? Səfərbərliklə məcburən müharibəyə əsgər aparsaydılar, onda biz tamam başqa mənzərə ilə qarşılaşardıq. Rusiyanı yaxşı tanıyan siyasətşünaslar və sosioloqlar deyirlər ki, əgər müharibə bu minvalla daha 3 il davam edərsə və Kreml pulsuz qalmazsa, onda Rusiyanın əlavə 1 milyon əsgər itirməsinə cəmiyyət səssiz qalacaq.

> Putinin bu cür danışmasının səbəbi Trampın Rusiyaya qarşı tətbiq edəcəyi tədbirlərin daha sərt və təhlükəli olacağı qorxusundan irəli gəlir. Putin anlayır ki, Baydenlə müqayisədə Tramp onun üçün daha təhlükəlidir, çünki radikal addımlar atmaqdan çəkinmir, digər yandan isə o, Rusiyanın əsas maliyyə qaynağının mənbəyini quruda bilər. ABŞ Prezidenti Rusiyaya atəşi saxlayıb, Ukrayna ilə razılığa gəlməyi təklif edir, lakin sülhdən sonra xəritənin necə olacağını hələ ki, göstərən yoxdur...

Detallara girmədən qısa şəkildə deyə bilərik ki, Putini əsgər ölümləri, iqtisadiyyatın hərbləşdirilməsi üzündən mülki təsərrüfat sektorunun iflic vəziyyətə düşməsi və əhalinin yoxsullaşması narahat etmir. Vladimir Putinin ən çox qorxduğu şey, müharibə üçün gərəkən pulun kəskin azalmasıdır. Tramp isə məhz həmin ağrılı yerdən zərbə vura bilər. Rusiya bunun baş verməməsi üçün bütün mümkün manevrlərdən istifadə etməyə çalışacaq. Taktiki gedişlərlə vaxt udmağa, sülhün məhz Ukraynanın istəmədiyini göstərmək üçün müxtəlif hiyləgərliklərə baş vuracaqlar. Tramp və komandası yəqin ki, Rusiyanın fəndgirliyini bilməmiş deyillər. Putin Ukraynanı danışıqlarda tərəf kimi görmək fikrində deyil, onun başlıca məqsədi Trampla ünsiyyət qurmaq və fürsətdən yararalnıb beynəlxalq təcriddən canını qurtarmaqdır.

Rusiyada düşünürlər ki, ABŞ Prezidenti Qrenlandiyanı, Panama kanalını və Kanadanı istəyirsə, onda bu lap yaxşıdır, əla presedentdir. Yəni, rusların yanaşmasından belə anlaşılır ki, 80 ildir mövcud olan beynəlxalq hüquq normalarının bir kənara itələnməsi Rusiyanın işinə yarayacaq. Rusiyanın suveren ölkənin ərazisini işğal etməsinin beynəlxalq hüququ pozması barədə son zamanlar heç söz salan yoxdur. Hamı Rusiyanın Ukraynadan sonra digər qonşularına qarşı təcavüzə başlayacağı təhlükəsindən danışır.

Rusiya nahaq yerə özünü ABŞ ilə eyniləşdirir. Düzdür, Trampın bəyanatları beynəlxalq normalara qarşıdır, lakin ortada geostrateji maraqlar dayanır. Qrenlandiyanın ABŞ-nin nəzarətinə keçməsi hipotetik baxımdan Rusiya və Çinin Arktik maraqlarına qarşıdır. Belə çıxır ki, əgər ABŞ Rusiyanı öz şimal sərhədləri yaxınlığında görmək istəmirsə, deməli, onda məntiqlə Vaşinqton Rusiyanın Ukraynada güclənməsinin tərəfdarı da olmamalıdır. Ona görə də Rusiya ABŞ-nin geostrateji maraqlarında yalnız Çinə qarşı istifadədə yer tuta bilər.

Rusiya dünyada təklənməmək üçün Çini dost və müttəfiqi adlandırır. Lakin Çin Rusiyanı özünə strateji müttəfiq hesab etmir, daha doğrusu, Pekin rəhbərliyi Rusiyanı sadəcə ucuz xammal bazası sayır. Krımı ilhaq edəndən sonra Rusiya bütün təbii resurslarını Çinə dünya bazarı qiymətindən qat-qat aşağı satıb. Çin dəyişən dünyada öz mövqeyini möhkəmləndirmək istəyəcək. Rusiyanın əlverişli şərait yaranan kimi hər an kəskin dönüş edib, gözlənilmədən müttəfiqlərini yarı yolda qoyub qaçmayacağının təminatı yoxdur. Elə bu səbəbdən də Pekin Moskvaya güvənərək böyük xətaya yol verməz.

Beləliklə, əgər yeni dünya nizamına doğru gediriksə, onda iri dövlətlər perspektiv maraqlarının diktəsinə uyğun hərəkət edəcəklər. Bu maraqlar vəziyyətə və şərtlərə görə dəyişir. Bu gün öz potensial imkanlarına görə ABŞ-dən, Avropadan və Çindən xeyli zəif olan və hələ üstəlik, qonşusu ilə döyüşən Rusiya aparıcı güc kimi çıxış edə bilməz. Dünyanın iri güc mərkəzləri arasında böyük strateji qarşıdurma hələ başlamayıb, Rusiya isə özünü tükəndirməklə məşğuldur.

Elə bu səbəbdən də ABŞ-nin Rusiyanı gələcək dünya nizamında necə görməsindən çox şey asılıdır. Sözsüz ki, Tramp Ukraynadakı müharibəyə ABŞ-nin maraqları və qlobal kontekstdən baxacaq. Cozef Bayden müharibənin uzadılmasına çalışırdı və buna müyəssər də oldu. Tramp müharibəni qısa zamanda durdura bilərmi? Bəlli deyil, amma bir şey aydındır ki, əgər ABŞ müharibənin Ukraynanın xeyrinə bitməsini istəsə, buna nail ola bilər. Bunun üçün Ukrayna müharibədə dönüş yaratmalı, rusları işğal etdiyi ərazilərin əksəriyyətindən qovub çıxarmalı, zərbə dronları vasitəsilə Rusiya Neft Emalı Zavodlarının işini iflic etməlidir. Eyni zamanda, ABŞ Rusiyanın sanksiyalardan yayınmasına imkan verməməli, Ukraynanı effektli silahlarla, kifayət sayda qırıcı təyyarələrlə təmin etməli, neftin qiymətini aşağı salmalıdır.

**Vaqif NƏSİBOV**

# ABŞ və Ermənistan birgə hərbi təlim keçirdilər

## Rusiya Xarici Kəşfiyyat Xidməti: "ABŞ Ermənistanı özünə tabe etməyə çalışır"

**Hərbi əməkdaşlıq çərçivəsində ABŞ və Ermənistan Almaniyanın Hohenfels şəhərində ABŞ hərbi bazasında keçirilən "Birgə Qərar-2025" təlimində iştirak ediblər.**




Təlim zamanı Ermənistan Müdafiə Nazirliyinin tibb personalı və ABŞ Milli Qvardiyaçıları döyüş meydanında tibbi müdaxilə ssenarilərini sınaqdan keçirmək üçün birgə fəaliyyət göstəriblər. Ermənistan Müdafiə Nazirliyi təlimin məqsədini döyüş meydanında tibb personalının tibbi cavab imkanlarının artırılması, çoxmillətli əməliyyatlarda koordinasiyanın təkmilləşdirilməsi və NATO qüvvələri ilə birgə işləmə bacarığının gücləndirilməsi olduğunu açıqlasa da, bu təlim adi hərbi təlim kimi qiymətləndirilməyib.

Rusiya Xarici Kəşfiyyat Xidməti (SVR) təlimlə bağlı açıqlamasında Qərbin Cənubi Qafqazda təsirini artırmaq cəhdlərinə "ABŞ Ermənistanı özünə tabe etməyə çalışır" ifadəsi ilə reaksiya verib. Rusiyanın "Tass" xəbər agentliyi də təlimin Almaniyadakı ABŞ bazasında keçirilməsinin özlüyündə bir mesaj olduğunu bildirərək, İrəvanın Qərbə yaxınlaşdığını və bunun Moskva üçün narahatlıq doğuran hadisə olduğunu vurğulayıb.

# Tramp-Putin görüşü Türkiyədə keçiriləcək?



**Rusiya ABŞ Prezidenti Donald Tramp və Vladimir Putin arasında görüş üçün mümkün məkan kimi Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərini nəzərdən keçirir.**

Bu barədə "Reuters" Rusiya mənbələrinə istinadla məlumat yayıb. Nəşrin mənbələrinə görə, Rusiyanın yüksək rütbəli rəsmiləri son həftələr Səudiyyə Ərəbistanı və BƏƏ-yə səfər ediblər. Eyni zamanda, Rusiyada hələ də bu ideya ilə bağlı bəzi narahatlıqlar var. Belə ki, hər iki ölkənin ABŞ ilə yaxın hərbi-kəşfiyyat əlaqələri mövcuddur.

"Reuters"-in qeyd etdiyi kimi, həm Tramp, həm də Putin Səudiyyə Ərəbistanı və BƏƏ hökmdarları ilə dostluq münasibətləri qurublar. Həm Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman, həm də BƏƏ Prezidenti Məhəmməd bin Zayed əl-Nəhyan Ukraynadakı müharibə boyu bitərəf qalıb, Qərbin Rusiyaya qarşı tənqid və sanksiyalarından çəkiniblər. Həmçinin, hər iki lider Ukrayna Prezidenti Volodimir Zelenski ilə də müntəzəm əlaqə saxlayır.

Onu da qeyd etmək lazımdır ki, bu ölkələrin heç biri Putinin həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin üzvü deyil. "Reuters" qeyd edir ki, indiki mərhələdə Rusiya mənbələri Türkiyəni görüşün mümkün yeri kimi nəzərdən keçirmir. Böyük ehtimalla bu, Türkiyənin Suriyadakı fəaliyyəti və ümumilikdə Rusiya ilə münasibətlərdə yaranan nisbi soyuqluqla bağlıdır.

# Rusiyalı nazir Ukrayna ilə müharibədə ağır yaralanıb

Rusiyanın Yakutiya vilayətinin gənclər və sosial kommunikasiyalar naziri Pyotr Şamayev Ukrayna ilə müharibədə ağır yaralanıb. Bu barədə vilayətin hökumət rəhbəri Kirill Bıçkov "Teleqram" kanalında yazıb. Bununla belə, K. Bıçkov yaralı nazirin vəziyyətini açıqlamayıb.

Qeyd edək ki, fevralın 2-də ötən ilin avqustundan Kurskdakı döyüşlərdə iştirak edən Primorsk diyarının vitse-qubernatoru Sergey Yefremov avtomobilinin minaya düşməsi nəticəsində həlak olub.

# Heydər Əliyev Qarabağı ermənilərə verməyə razı olub?

## Sabiq XİN rəhbəri "ərazi mübadiləsi" iddialarına aydınlıq gətirdi

**"Azərbaycan "ərazi mübadiləsi" ilə bağlı müzakirədən yalnız iki dövlət arasında yeni, birbaşa danışıqlar formatını möhkəmləndirmək üçün istifadə edib".**



Bunu keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov ABŞ övlət Departamentinin açıqladığı 90-cı illərə aid Qarabağ danışıqları ilə bağlı məxfi sənədləri şərh edərkən bildirib. Açıqlanan sənədlərə görə, guya o zaman "Dağlıq Qarabağ"-la Ermənistanın ərazisinin müəyyən hissəsinin mübadiləsi planı müzakirə edilib.

Sabiq nazir təəssüflə bildirir ki, əvvəl Robert Köçəryanın kitabında olduğu kimi, indi də o sitatlar bizim mövqeyimizdən deyil, sızan sənədlərin müəlliflərinə faydalı olan məqamlara əsaslanır. Onun sözlərinə görə, bu və ya digər şərhdə ərazilərin "mübadiləsi" mövzusu ön plana çəkilir: "Həmin hadisələrin iştirakçısı kimi nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan tərəfi "mübadilə" mövzusunun müzakirəsindən yalnız iki dövlət arasında yeni, birbaşa danışıqlar formatını möhkəmləndirmək üçün istifadə edib və R.Köçəryan 1998-ci ilin aprelində buna razılıq verib. Məhz bundan sonra münaqişə reallığa tam uyğun gələn təsnifat - dövlətlərarası ərazi münaqişəsi statusunu aldı".

T.Zülfüqarov qeyd edib ki, bu müzakirə və danışıqlar vasitəçilərinin və Ermənistan tərəfinin qoyduğu "dağlıq Qarabağın statusu" və erməni separatizmini danışıqların əsas mövzusundan kənarlaşdırmağa imkan verdi: "Bizim qarşımıza qoyulan vəzifə münaqişənin "ssenarisini" dəyişmək idi. Prezident Heydər Əliyevin əsas məqsədi də bu idi. Məhz bunun sayəsində bu gün mövqeyimiz imkan verir ki, "Qərbi Azərbaycan", "Zəngəzur", "Göyçə mahalı" və s. kimi mövzuları gündəmə gətirək. Bu hekayənin sonuna əvvəlcə münaqişə tərəfi, sonra isə "ikinci erməni dövləti" yaratmaq istəyən İrəvanın marionetləri ilə bağlı Bakıda keçirilən məhkəmə prosesində nöqtə qoyulacaq"-deyə, sabiq nazir bildirib.

Xatırladaq ki, həmin dövrdə Tofiq Zülfüqarov xarici işlər naziri olub.

**KƏNAN**

# Moskvada "erməni batalyonu"nun yaradıcısı öldürüldü



**Moskvada "Alye Parusa" yaşayış kompleksində partlayış baş verib. AzPolitika.info yerli teleqram kanallarına istinadla xəbər verir ki, ilkin məlumata görə, bir nəfər ölüb, bir nəçə nəfər isə yaralanıb.**

Sakinlərin verdiyi məlumata görə, hadisə yerinə bir neçə təcili yardım briqadası və yanğınsöndürənlər cəlb edilib. Hadisə şahidləri partlayışın hündürmərtəbəli binanın lift foyesində baş verdiyini ehtimal edir.

Bundan əvvəl Rusiyanın telegram kanalları, "Alye Parusa" yaşayış kompleksinin şüşə qırıqları ilə dolu olan girişindən kadrlar yayıb. Kadrlarda yerdə bir kişinin uzandığı, ona tibbi yardım göstərildiyi görünür.

"Baza" telegram kanalı partlayış nəticəsində bir nəfərin öldüyünü, ən azı beş nəfərin yaralandığını iddia edir. TASS agentliyi isə fövqəladə hallar xidmətinə istinadla daha bir nəfərin öldüyünü bildirir. Teleqram kanalları partlayıcı qurğunun işə salındığını və ya qumbaranın partladığını yazıb. Rusiya dövlət mediası cinayət işi açıldığını bildirib. Onlar partlayışı "teror aksiyası" adlandırıblar.

RBC-nin hüquq-mühafizə orqanlarındakı mənbəsi bildirir ki, əsas versiyaya görə, olay sifarişli qətl olub. Bundan əvvəl bir sıra KİV-lər ölən şəxsin üzünün ciddi zədələndiyini və onun şəxsiyyətini hələlik müəyyən etmək mümkün olmadığını yazmışdı.

Versiyalardan birinə görə, partlayışda ölən şəxs qondarma "DXR"in boks federasiyasının prezidenti, "erməni batalyonu"nun yaradıcısı kimi tanınan Armen Sarkisyandır. Bu bölmə Müdafiə Nazirliyinin nəzarətində olan "Redut" PMC-yə tabedir və Rusiyanın Ukraynaya hücumunda iştirak edib. Sarkisyanın öldüyü barədə ilk məlumatı onun kirayədə qaldığı mənzilin sahiblərinə istinadən "VÇK-OGPU" teleqram kanalı verib.

Hökumətyönlü "Mash" kanalı da yazır ki, baş verən partlayış Ukraynada axtarışda olan Armen Sarkisyana qarşı sui-qəsd ola bilər. Onun ağır yaralanaraq reanimasiyaya göndərildiyi iddia edilir. Oxşar məlumat "Baza" və "Şot" tərəfindən təsdiqlənib.

Moskvada partlayış nəticəsində yaralanan Ukraynada Rusiya tərəfində döyüşən erməni batalyonu "Arbat"ın yaradıcısı Armen Sarkisyan ölüb.

Bu barədə Rusiya teleqram kanalları məlumat yayıb. Bildirilib ki, ağır vəziyyətdə reanimasiyaya yerləşdirilən Sarkisyan həyatını itirib.

**RƏŞAD**

Hürriyyət

Toplum

SİZİN ÜÇÜN QƏZET

№05 (3344) 4 Fevral / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# 1 nömrəli uşaq evində baş verən dəhşətli faktlar




"Sığınacaq üçün deputat Könül Nurullayevaya müraciət etdim, mənə bir bəy tapıb, ailə qurmağımı məsləhət bildi..."

"Mehriban xanım uşaq evinə gələndə bizə dedilər ki, tərifləməsən, axşam bilirik nə edəcəyik..."

**2010-cu ildə valideynləri tərəfindən 3 uşaq Nizami rayonundan yerləşən 1 saylı uşaq evinə verilib. Həmin gündən bir çox kimsəsizlər kimi, bu uşaqların da qara günləri başlayıb. Valideyn himayəsindən məhrum olmaları bir yana, onlar üstəlik də uşaq evinin müəllimləri tərəfindən təhqir və təhdidlərə məruz qalıb.**

Adının açıqlanmasını istəməyən xanım deyir ki, hələ də burada gördüklərinin, eşitdiklərinin, o cümlədən də direktorun və müəllimlərin hədə-qorxusunun təsirindədir. Amma bacısı hələ də orda olduğundan, başlarına gələnləri tam danışmaqdan çəkinir. Xanımın əməkdaşımıza verdiyi açıqlamaları olduğu kimi dərc edirik:

"Biz, 3 uşaq çox əziyyət çəkmişik. Hazırda mənim 20, bacımın isə 18 yaşı var. Bildiyimə görə, qardaşım əsgərlikdədir. Amma harada olduğu, necə olduğu haqqında ətraflı məlumatım yoxdur. Sığınacağım, bacımı və qardaşımı yanıma alacağım bir komam belə, yoxdur. Məni uşaq evinin rəhbəri Nərminə Zöhrabova çıxarıb çölə atdı ki, böyük qızsan, get işlə, harada da qalırsan qal, burada səni və sənin yaşında olanları saxlaya bilmərik. Halbuki, orada hazırda təhsil alan mənimlə yaşıd bir nəfər saxlanılır. Həmin şəxsin ata-anası da var. Amma hansı səbəbə görə olduğunu bilmirəm, onu indi də orada saxlayır.

Buradan sizin qəzet vasitəsilə valideynlərə yalvarıram, baxa bilməyəcəyiniz uşaqları dünyaya gətirməyin. Bunun əziyyətini biz çəkirik. Əlimizdə oyuncaq olmalı olduğu halda biz uşaq evində soyuq suda yağlı qabları yumağa məcbur edilmiş, yuya bilməyəndə isə çubuqla heydən düşənə qədər döyülmüşük. Siz valideynlər bunu bilməssiniz. Çünki uşağı dünyaya gətirsəniz də, o uşağın gələcəyini düşünmürsünüz.

Sizə 2010-cu ildən başımıza gələnlərdən danışım. Həyat nədir, çətinlik nədir, uşaq evində tanış oldum. Uşaq idik, başqaları kimi biz də nadinclik edib oynamaq, səs-küy salıb qışqırmaq, uşaqlığımızı yaşamaq istəmişik. Amma uşaq evinə qoyulan gündən bunların hamısı əlimizdən alınıb. Mən o zülmləri görmüş bir uşaq kimi təklif edirəm ki, uşaq evlərinə direktor və müəllimlərin bilmədikləri yerə səsli kameralar quraşdırılsın. O zaman müəllim heyətinin əsl üzünü görə bilərsiniz.

Maşınlarda təzə çörək, ərzaqlar gətirilirdi. Lakin biz orada olduğumuz müddətdə bir dəfə də təzə çörək yeməmişik. Quru və kifli çörəklər verilirdi. Yedimiz ancaq borş və "qreçka" olub. Öz gözümüzlə görürdük ki, şirniyyatlar da gəlir. Hər birimizin ürəyi istəyirdi, amma vermirdilər. Müəllimlər və direktor evə gedəndə neçə-neşə paketləri özüləri ilə aparırdılar.

Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva uşaq evinə gələndə bizə deyirdilər ki, tərifləməsən, ağzından nəsə çıxsa, axşam bilirik nə edəcəyik. Qorxumuzdan heç nə deyə bilmirdik. Dəfələrlə Leyla xanımın yanına yığılıb nəsə demək istəmişik, amma dərhal müəllimələr müdaxilə ediblər, imkan verməyiblər. Özümüzdə də qorxu var idi, axşam nələr edə bilərlər deyə fikirləşirdik.

Uşaq vaxtı müəllimlərdən biri başımı armatur qırığı ilə vurub yaralamışdı. Direktora isə "yıxılıb" dedilər. Amma direktor da yaxşı bilirdi ki, müəllimələr bizə işgəncə verir. Döyülən zaman onlara müqavimət göstərdikdə isə bizdən böyük uşaqlara tapşırırdılar ki, onu möhkəm döyün. Onlar da bizi döyürdülər. Bizi döyən uşaqlarla bizim aramızda fərq var idi. Onları müəllim heç vaxt döymürdü.

18 yaşım tamam olmuşdu. Nərminə xanım məni və bir neçə uşağı tək-tək otağına dəvət edərək, bir çox sənədlərə qol çəkdirdi. Səhəri gün bizə dedilər ki, siz öz razılığınızla buradan çıxıb gedirsiniz, burada sizə yer yoxdur. Deyəndə k, getmirik, bizə qol çəkdiyimiz sənədləri göstərdilər. Bundan sonra məni və bir neçə nəfəri qovub çölə çıxardılar. Çöllərdə qaldıq, günlərlə əziyyət çəkdik. Daha sonra bir neçə nəfər yığılıb, ev tutduq. Bacıma isə tapşırdım ki, qəti heç bir sənədə qol çəkmə. Çünki onun çöllərdə qalmağı mənim üçün daha da fəlakət olardı.

Oradan çıxan qızlardan biri hazırda 19 yaşında ana olub, yoldaşı isə yanında yoxdur. Başqa tanıdığım Əfsanə adlı qız isə "Neftçilər" metrostansiyası yaxınlığında dilənib, narkotik üçün pul yığır.

Uşaq evində çox pis hadisələrin şahidi olmuşam. Orada uşaqların dünya görüşlərini inkişaf etdirmirlər. Bizə əşya kimi baxırlar, gələcəyimizi düşünmürlər, şəxsiyyət kimi yanaşmırlar. Təhqir edib, bizi alçaldırlar.

Biz uşaq evində ət üzü görmürdük. Ətlər bükülüb paketlərdə müəllimlərin evlərinə gedirdi. Sanki o müəllimlələr aclıqdan çıxıb.

Prezidentin qərarına əsasən uşaq evindən çıxan uşaqlara ev verilməlidir. Ona da mane olurlar. Sənədlərimizi nazirliyə göndərməyimizə mane yaradırlar. Deyirlər ki, öz ana-atanız yiyə durmayıb, dövlət sizə niyə ev verməlidir?!

Məsələ ilə bağlı deputat Könül Nurullayeva və köməkçi Sabit bəylə görüşdüm ki, ev almağıma köməklik etsin. Dedim ki, ev ala bilməsəm də, heç olmasa müvəqqəti yaşamaq üçün bir yer versinlər. Könül xanım mənə bir bəy tapmağımı, ailə qurmağımı məsləhət bildi. Bir də dediki, Milli Məclisə məktub yaz göndər. Onun dediyini də etdim. Amma mənə heç bir yol göstərmədilər.

Mən səlahiyyətli qurumlardan xahiş edirəm, uşaq evlərini güclü nəzarətdə saxlasınlar. Mənim kimi bir çox uşaqların da çöllərə atılmağına imkan verməyin. Bizim tufeyli həyat yaşamağımıza səbəb olanları cəzalandırın".

**Jalə FAMİLQIZI**

**P.S. 1 nömrəli uşaq evinin rəhbəri Nərminə Zövrabova ilə əlaqə saxlamaq mümkün olmadı. Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# ADNS-yə yeni rektor təyin edildi

Rüfət Əzizov 2023-cü ilin sentyabrından Sumqayıt Dövlət Universitetinə rəhbərlik edirdi...



**Rüfət Eyvaz oğlu Əzizov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru təyin edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. R. Əzizov 2023-cü ilin sentyabrından SDU-nun rektoru vəzifəsini icra edirdi.**

Qeyd edək ki, Rüfət Əzizov 7 aprel 1980-ci ildə Bakı şəhərində anadan olub. Əslən Masallı rayonunundandır.

O, 1998-ci ildə Beynəlxalq Mendeleyev Kimya Olimpiadası qalibi kimi Lomonosov adına Moskva Dövlət Universitetinin Kimya fakültəsinə imtahansız olaraq-müsabiqədən kənar qəbul edilib və 2003-cü ildə kimya ixtisası üzrə məzun olduqdan sonra həmin ali məktəbdə elmi-işçi vəzifəsində çalışaraq, biokorroziya üzrə araşdırma və inkişaf proqramlarında iştirak etməklə universitetdə aspirantura təhsilini davam etdirib.

2006-cı ildə dissertasiya işini müdafiə edərək kimya elmləri üzrə fəlsəfə doktoru (PhD) elmi dərəcəsini alıb.

2008-ci ildə London Materiallar İnstitutunun peşəkar üzvlüyünə qəbul olub və Böyük Britaniya elmi cəmiyyəti tərəfindən "Chartered Scientist" elmi adına layiq görülüb.

2005-2012-ci illərdə BP şirkətində mühəndis kimi beynəlxalq neft-qaz layihələrində təcrübə qazanmış, material/korroziya mühəndisliyi və texnoloji bütövlüyün idarə olunması meneceri vəzifələrində çalışıb.

2014-2016-cı illərdə ADA və Maastrixt Universitetinin birgə MBA proqramını və 2018-2020-ci illərdə isə Oksford Universitetinin Said Biznes məktəbində ali biznes idarəçiliyi, "Executive MBA" proqramını bitirib.

Kornell Universitetinin ali idarəetmə, Corc Vaşinqton Universitetinin layihələrin idarə olunması və Oksford Universitetinin süni intellekt proqramı da daxil olmaqla bir çox kurs və təlimlərdə iştirak edib.

7 yanvar 2021-ci ildə Emin Əmrullayevin əmri ilə Təhsil İnstitutunun direktoru vəzifəsinə təyin olunub.

2023-cü ilin sentyabrında isə Sumqayıt Dövlət Universitetinin rektoru vəzifəsinə təyin edilib.

Rüfət Əzizov həmçinin Bakı Ali Neft Məktəbinin MBA proqramında (Dizayn Təfəkkürü və Lean Dizayn), Kimya Mühəndisliyi Magistratura proqramında və eləcə də Layihələrin İdarə Olunması Məktəbində (PMI sertifikat) dərs deyir. Oxford Universitetinin İnnovasiyalar mərkəzində elmi nəticələrin kommersiyalaşdırılması proqramında ekspert kimi fəaliyyət göstərir. "Engineering For Kids" şirkətinin Azərbaycan üzrə təmsilçisi olan STEM Təhsil Mərkəzinin təsisçisidir.

Ailəlidir. 2 övladı var.

Xatırladaq ki,Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı isə 2023-cü ilin iyulunda vəzifəsindən azad edilib.

# Vəzifəsindən azad olunan məktəb direktoru həbs edildi

**Dağlıq-Şirvan Regional Təhsil İdarəsi Ağsu rayonu S.Mikayılov adına tam orta məktəbin sabiq direktoru Həsənov Fəxrəddin Həsənqulu oğlunun həbsi məsələsinə münasibət bildirib.**

Regional İdarədən APA-ya verilən məlumata görə, Dağlıq-Şirvan Regional Təhsil İdarəsi tərəfindən adıçəkilən təhsil müəssisəsində aparılmış yoxlama zamanı sabiq direktorun əmək fəaliyyəti dövründə dövlət əmlakını mənimsəməsi də aşkarlanıb və toplanmış materiallar hüquq-mühafizə orqanlarına təqdim edilib.

Bildirilib ki, sabiq direktor əmək fəaliyyətində yol verdiyi nöqsanlara görə ötən il iyulun 3-də tutduğu vəzifədən azad edilib.

Qeyd edək ki, Ağsu rayon prokurorluğunda F.Həsənova qarşı Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan olunub və barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi materialları məhkəməyə göndərilib.



# Təhsil sektorunun müdiri vəzifəsindən azad edilib

**Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin Goranboy-Naftalan rayonları üzrə təhsil sektorunun müdiri Xəyal Məmmədov vəzifəsindən azad edilib. Bununla bağlı elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb. Goranboy-Naftalan təhsil sektoruna müdir əvəzi vəzifəsi Regional Təhsil İdarəsinin əməkdaşına həvalə edilib.**

Qeyd edək ki, Xəyal Məmmədov Goranboy-Naftalan rayonlarə üzrə təhsil sektorunun müdir vəzifəsinə 2022-ci ildə təyin edilib. Məlumata görə, sektor müdiri X.Məmmədov işdən çıxması ilə bağlı istefa ərizəsi yazıb və onun ərizəsi qəbul edilib.

"Uşaq evin güzgüsüdür". Uşaq evdə gördükləri ilə həm tərbiyə alır, həm də formalaşır. Uşaq ailədə valideynləri ilə qurduğu münasibətlərdən faydalanaraq şəxsiyyətini formalaşdırır, sosial dünyaya baxışını inkişaf etdirir. Əgər valideyn övladına sevgi dolu, qayğıkeş və dəstəkverici yanaşarsa, uşaq da özünə güvənən, empatiya qabiliyyəti yüksək və sosial baxımdan aktiv bir fərd kimi formalaşar. Əks halda, valideynin sərt yanaşması, laqeyd münasibəti və ya daim üstün mövqedə dayanması uşağın özgüvənini zəiflədir, nəticədə onun gələcəkdə emosional problemlərlə qarşılaşmasına səbəb ola bilər.

# Uşaqlarda özgüvənsizlik necə yaranır?





## Valideyn və uşaq münasibəti necə olmalıdır?

Evlilik birliyin, sevginin və qarşılıqlı hörmətin əsaslandığı bir sistemdir. Sevgi, hörmət, anlayış və qarşılıqlı dəstək güclü evliliyin təməl daşlarıdır. Hər insan fərqli dünyagörüşünə, xarakterə və düşüncə tərzinə malikdir. Əgər tərəflər bu fərqləri anlayışla qarşılayar və bir-birinə uyğunlaşmağa çalışarsa, münasibət daha möhkəm və davamlı olar. Nəticədə isə travmasız, sağlam psixologiyaya sahib olan övlad yetişdirmək olar.

"Hiss" Psixoterapiya Mərkəzinin rəhbəri, klinik psixoloq, psixoterapevt İlkin Kazımlı "Hürriyyət"ə açıqlamasında məhz sağlam övlad böyütməyin yolları haqda danışıb: "Həyatda çox zaman qaçınılmaz stresslərə məruz qalırıq. Yaşadığımız stresslərlə necə mübarizə aparacağımız bizim valideynlərimiz tərəfindən necə yetişdirildiyimizdən asılıdır. Valideynlər çalışıb uşağın psixoseksual inkişaf dövrlərinə uyğun, düzgün yanaşmalara məsuliyyətlə riayət etsələr, o zamam psixoloji tam sağlam övlad yetişdirə bilərlər. Əgər uşaqlar həyatda heç bir xəyal qırıqlığı (frustrasiya) və stresslə üzləşməsələr, nə kifayət qədər inkişaf edə, nə də qarşısına çıxan çətinliklərlə mübarizə aparmağı öyrənə bilməzlər.

Çox vaxt valideynlər övladlarının çətinlik, ağrı və acılarla üzləşməməsi üçün ciddi narahatlıq keçirirlər. Təəssüf ki, uşaqları həyatın bütün çətin məqamlarından qorumaq onları irəli yaşlarda həyata qarşı daha dayanıqlı və güclü etməz. Bir valideyn, uşağının həyatı boyunca bütün problemlərini həll edə bilməyəcəyi kimi, onun həyatında yaşayacağı bütün çətinlikləri də əngəlləyə bilməz. Uşaqların irəli yaşlarda həyatın problemləri ilə sağlam formada mübarizə aparması və öz bacarıqlarını inkişaf etdirmələri valideynlərin əlindədir.

Sağlam uşaq yetişdirməyin digər məqamı şərtsiz sevgi verməkdir. Şərtsiz sevgi bir uşağın dünyaya gəldiyindən etibarən ən təməl ehtiyacı olmaqla paralel, uşaqda güvən hissini də inkişaf etdirir. Körpə bir uşağın anasına möhtac olduğunu düşünün. Uşağın dünyaya göz açdığı andan etibarən həyata tutunmasını təmin edən tək şəxs onun öz valideynidir. Uşağın valideyni ilə quracağı sevgi dolu və hissiyatlı münasibəti, onun beyninin inkişafını sürətləndirir. Uşağın ilk dövrlərdə stress alıb-almaması, ac olduqda, susadıqda ya da üşüdüyündə ehtiyacı olan baxımı alıb-almaması ilə təyin olunur. Uşağın ehtiyacı olan baxımı ala bilməsi, psixoloji dözümlüyüyü təyin edən əsas ünsürlərdən biridir.

> Sağlam uşaq yetişdirməyin digər məqamı şərtsiz sevgi verməkdir. Şərtsiz sevgi bir uşağın dünyaya gəldiyindən etibarən ən təməl ehtiyacı olmaqla paralel, uşaqda güvən hissini də inkişaf etdirir. Körpə bir uşağın anasına möhtac olduğunu düşünün. Uşağın dünyaya göz açdığı andan etibarən həyata tutunmasını təmin edən tək şəxs onun öz valideynidir. Uşağın valideyni ilə quracağı sevgi dolu və hissiyatlı münasibəti, onun beyninin inkişafını sürətləndirir...

Sevgi və güvənlə inşa edilən münasibətlər psixoloji dözümlülük üçün sağlam forma yaradır. Əgər uşağınızı özgüvənli bir fərd olaraq yetişdirmək istəyirsinizsə, o, öz qərarlarına güvənməli və seçimlərinin məsuliyyətini almağı bilməlidir. Uşaqlıq demək eyni zamanda xəta etmək və xətalarından dərs çıxarmaq deməkdir. Təəssüf ki, əksər valideynlər övladlarının səhvlərini özləri həll etməyə cəhd edirlər. Bu da uşaqların inkişafına zərər verən davranışdır. Belə olduğu təqdirdə uşaqlıqdan həyatın çətinlikləri ilə üzləşib mübarizə aparmağı öyrənməmiş uşaq daha çox qırılqan və həssas bir xarakterik xüsusiyyətə malik olur. Valideynin təməl məqsədi uşaq böyüdükcə onun inkişaf səviyyəsinə uyğun çətinliklərlə mübarizə aparması üçün onu dəstəkləmək və cəsarətləndirmək olmalıdır.

Dinləmək bəlkə də insanoğlunun sahib olduğu ən vacib davranışlarından biridir. Dinləmək hamımızın təbii ehtiyacıdır. Çünki ancaq dinlənəndə tam anlamı ilə eşidilə və başa düşülə bilərik. Eyni vəziyyət uşaqlarımızla olan münasibətimizdə də keçərlidir. Uşaqlar da həyatlarında bir çox qorxu, qayğı, üzüntü və həyat qırıqlığı yaşaya bilər. Valideynlik isə təməli güvən üzərinə qurulmuş və həyat boyu davam edən yolçuluqdur.

Insan həyatındakı ən vacib ilk münasibət - valideyn-övlad münasibətidir. Valideynlərimizlə olan münasibətlər həyatımız boyunca qurulacaq əlaqələrin təməlini qoyur.

Valideyn-uşaq münasibətində daha çox küskünlük, incinmə olarsa bunları bərpa etmək çətin olur. Uşaqlarınızla qurduğunuz münasibətdə təsdiq, sevgi, hörmət, vacib bilmə duyğusu nə qədər çox olarsa uşaqlarınız xoşbəxt, empatiyalı və çalışqan insan olaraq böyüyəcəkdir.

Uşağınızın qarnını doydurduğunuz kimi, onun emosional dünyasını da doydurun. Uşaqlarınıza hörmət edərək, sevdiyinizi, təsdiqlədiyinizi göstərərək, onların inkişafına dəstək olaraq bəsləyin.

Övladınıza hörmətlə yanaşmaq, uşağın özünə olan güvəninin inkişafında daha çox təsirlidir. Uşağınızın sözünü kəsmək məqamında qaldıqda "sözünü kəsirəm, üzürlü say", ya da uşağınız siz danışarkən bir deməyə çalışdığında "biraz gözlə, birazdan səni dinləyəcəm" kimi uşağa geri dönüş etmək ona hörmət edildiyini və onun vacib bir şəxs olduğunu hiss etdirir. Valideynlər uşağa hörmət etdikcə uşaqlar da zamanla digər insanlara hörmət etməyi və sağlam sərhədləri öyrənmiş olur".

Klinik psixoloq bildirir ki, bir şəxsin xarakteri aldığı ailənin tərbiyəsinə əsasən formalaşır: "Bəzi valideynlər özlərinin əksik və xətalarını uşaqlarına yansıdırlar. Belə bir ortamda böyüyən uşaqlar sosial həyatlarında çox da uğurlu ola bilmir və özlərini daha çox tənqid edirlər.

Bir neçə ailə yanaşma növlərini qeyd edəcəm:

Manipulyasiya toksik ailələrin istifadə etdiyi ən böyük kontol üsuludur. Hərgün manipulyasiyaya məruz qalmaq normal bir vəziyyət deyildir və buna emosional şiddət deyirlər. Davamlı olaraq manipulyasiya edildiyinizdə insanlara olan güvəniniz azalır və yeni insan münasibətləri qurmaqda çətinlik çəkirsiniz. Bundan əlavə, ailəsi tərəfindən manipulyasiya edilən insanlarda çəkingənlik davranışları özünü göstərir.

Gərgin bir ortamda böyümək uşaqların psixologiyasında dərin izlər buraxır. Həmin uşaqlar lazım olan qayğını görməmiş və ya davamlı stressli hiss edərək böyüyərlər. Əgər uşaq belə bir ortamda böyüyübsə, insanlara güvənməkdə və onlara özünüzü açmaqda çətinlik çəkə bilərsiniz. Toksik bir ortamda böyüyən uşaqlar özlərini dəyərsiz hiss edər və kifayət qədər yaxşı olmadıqlarını düşünürlər.

Bu insanların valideynləri, uşaqlarından daha çox bacarıq gözləyərlər və uşaqları gözləntilərini qarşılaya bilmədikdə zamanla onları günahlandırarlar. Bu da uşaqlarda özgüvənsizliyə səbəb olur. Uşaqların sevildiklərini hiss etdikləri mühitdə böyüməleri onların psixoloji aspektdən inkişafları üçün vacibdir. Ailəsi ilə problemli münasibət yaşayan uşaqlar öz iç dünyalarına dönərlər. Sevilmədiklərini düşündükləri və davamlı tənqid olunduqları üçün özlərini olduqlarından daha pis görürlər.

Problemli valideynlər uşaqlarının duyğularını görməzdən gəlirlər. Uşaqlar duyğularından bəhs etdikləri zaman da pis münasibətə məruz qalırlar. Bunun nəticəsi olaraq da uşaqlar qəzəbini, küskünlüyünü və acısını gizlətməyə çalışırlar. İrəli zamanlarda da başqalarının duyğularını və nə düşündüklərini ön planda tutarlar".

**Jalə FAMİLQIZI**

# ACI XURMA

Fəridə məktəbdə təmizlik işlərini görüb başa çatdırmışdı. Bir az əyləşib yorğunluğunu çıxarandan sonra evə getməyə hazırlaşırdı. Xadimə işlədiyi məktəbin ikinci mərtəbəsinin pəncərəsinin qabağında oturub həyətə baxa-baxa xəyala daldı. Yenə həmişəki kimi, özü də istəmədən ürəyində ən çox sevdiyi el bayatısı təkrarlanmağa başladı...

*(Əvvəli ötən sayımızda)*



## (Hekayə 44 günlük müharibədə yaşanmış real bir ailə dramı əsasında yazılıb)

...Fəridənin bütün xəyalları ancaq İgidlə bağlı idi. O, İgidi həm də Fəridin əvəzinə böyüdür, ona həm ana, həm ata olurdu. Fəridə İgidi Fəridin görmək istədiyi ruhda tərbiyə edirdi.

İgid son siniflərdə oxuyanda atası kimi yaraşıqlı, boybuxunlu bir gənc olmuşdu. O da atasi kimi vətənpərvər, millətinə və dövlətinə düşkün idi. Əzbərlədiyi bütün şerlərin mövzusu vətən və millət haqqındaydı. Azərbaycan tarixi ilə bağlı bütün kitabları oxumuşdu. Mədəniyyətimizi həm sevir, həm də onun alovlu təbliğatçısı idi. Bir sözlə, İgid ikinci Fərid idi. Bu da Fəridəyə böyük bir təskinlik idi. O, itirdiyi Fəridini böyütdüyü İgidində tapmışdı.

İgidin yaxın dostları da İgid kimi vətənpərvər idilər. Gənclər bir yerə yığışanda ancaq Qarabağdan, Cənubi Azərbaycandan və digər milli problemlərdən danışırdılar. İgid vaxtından əvvəl kişiləşmişdi. Yaşının az olmasına baxmayaraq, özünü böyük bir adam kimi aparırdı. Məhəllədə və məktəbdə hamı ona hörmət edir, müəllimləri onun gələcəyinə böyük ümid bəsləyirdilər. İgid dərslərini əla oxuyur, başqa usaqlara numunə olurdu. İctimai işlərdə həmişə öndə idi. Tərbiyəsi ilə başqa uşaqlara nümunə olmuşdu, çox uşaq İgidin təsirindən özünü yığışdırırdı.

Fəridə bununla fəxr edir, belə bir övlad böyütməsi ilə təskinlik tapırdı. Onun ən böyük arzusu oğlunun atası kimi ali təhsil alması və xoşbəxt ailə qurması idi. Bundan sonra yaşamamaq da olardı. Az qala hər gün Fəridə İgidin toy gününü xəyalına gətirir, ürəyində gələcək gəlini ilə danışır, hətta nəvəsini oynatmağı belə, xəyal edirdi.

gPolad Həşimovun xaincəsinə şəhid edilməsi xəbəri bütün Azərbaycanı ayağa qaldırdı. Əvvəlki illərdən fərqli olaraq, bu cinayəti düşünüb, həyata keçirənlərin proqnozlarının əksinə, onun ölümü bütün Azərbaycan gənclərində intiqam hissi oyatmışdı. Hər bir gənc Poladın intiqamını almağa and içirdi. Əvvələr adamlar müharibə adı gələndə narahat olurdu, problemin müharibəsiz həllini istəyirdilər. İndi isə tam əksinə, hamı müharibə istəyirdi. Hətta minlərlə gənc Milli Məclisin qarşısına yığışıb, hökumətdən Qarabağın azad edilməsi ilə bağlı Müqəddəs Vətən Müharibəsi elan etmələrini tələb edirdilər.

Artıq hər yerdə müharibə hazırlığı gedirdi. Televiziya kanallarında hamı müharibədən danışırdı. Poladın, Mübarizin və digər qəhrəmanların şəkilləri çoxaldılıb yayılırdı. Bir an da olsun Qarabağın azad edilməsi fikirlərdən çıxmırdı. Gənclər qisas hissi ilə alışıb yanırdı.

Fəridə gördüklərindən qorxuya düşmüşdü. Fikirləşirdi ki, müharibə olsa, İgid birincilər sırasında müharibəyə gedəcək. Amma bəzən də özünə təskinlik verirdi. İgid Tibb Universitetinin birinci kursunda təhsil alır, alənin tək oğludur, hərbi mükəlləfiyyətdən müvəqqəti azaddır. Təcrübəli döyüş qabiliyyətli əsgərlərimiz coxdur... Amma yenə də ana ürəyi ona ciddi bir təhlükənin yanaşmaqda olduğundan xəbər verirdi.

Fəridə bu gün də erkəndən işə gəlmişdi. Həmişəki kimi İgidin yeməyini hazırlayıb, stolun ustünə qoymuşdu. Əlavə cib xərcliyi də verməyi yaddan çıxarmamışdı. Həmin gün məktəbdən bir nəfər dindar müəllimə ümrə ziyarətindən qayıtmışdı. Məkkədən xurma alıb gətirmiş və hamıya təbərrük kimi paylayırdı. Fəridəyə də xurma təklif etdi. Fəridə iki dənə xurma götürdü. Müəllimə nə qədər təkid etsə də, üçüncü xurmaya ehtiyac olmadığını dedi. Fəridə müəllimənin verdiyi xurmadan heç görməmişdi. Bu xurma iri və yumşaq idi. Xurmadan şirə elə axırdı ki, elə bil pətəkdən bal damır. Fəridə xurmanın birini bir kağıza büküb, çantasına qoydu, fikirləşdi ki, axşam Igidə verər. Digərini Məkkədən gələn bir təbərrük olduğundan ağzına qoydu. Hələ xurmanı çeynəməmiş ağzı şirinləşdi. Xurma həqiqətən bal dadı verirdi, həddən artıq şirin idi. Az qala adamın boğazını qovuşdururdu. Fəridə bir az su içib xurmanın şirinliyini azaltmaq istədi. Amma xurmanın şirinliyi ağzından getmədi.

> Fəridə bu gün də erkəndən işə gəlmişdi. Həmişəki kimi İgidin yeməyini hazırlayıb, stolun ustünə qoymuşdu. Əlavə cib xərcliyi də verməyi yaddan çıxarmamışdı. Həmin gün məktəbdən bir nəfər dindar müəllimə ümrə ziyarətindən qayıtmışdı. Məkkədən xurma alıb gətirmiş və hamıya təbərrük kimi paylayırdı. Fəridəyə də xurma təklif etdi. Fəridə iki dənə xurma götürdü...

İş vaxtının qurtarmağına az qalırdı. Fəridə beş dəqiqədən sonra evə gedəcəkdi. Birdən qonşu uşaq qaça-qaça gəlib Fəridəyə yaxınlaşdı: "Fəridə xala, İgid müharibəyə gedir, tez gedək, yoxsa görə bilməyəcəksən".

Fəridəni soyuq tər basdı: "Nə müharibə? Necə oldu, onu müharibəyə aparırlar...".

Fəridə uşağın arxasınca sürətlə müharibəyə gedənlərin toplaşdığı yerə çatdı. Artiq İgid digər çağırışçılarla birlikdə avtobusda oturmuşdu. Fəridə, "səni niyə aparırlar kig, axı sənin "otsroçkan" var". "Ana, mən könüllü gedirəm, Polad Pəşimovun intiqamını almadan yaşamaq mənə haramdıg". Fəridə bir söz tapa bilmədi. Hər şey onsuz həll olunmuşdu. Çantasını açıb Məkkədən gələn xurmanı oğlunun ovcuna basdı: "Oğlum, bunu ye, təbərrükdü. Allah səni xəta-bəladan qoruyar, inşallah".

İgid xurmanı alıb döş cibinə qoydu və gülə-gülə, "Baş üstə, ana, sonra yeyərəm. İndi mən bu xurmanı bu qədər adamın arasında necə bölüm? Təklikdə yemək də yaraşmaz axı", - dedi. Fəridə bir söz demədi. Göz yaşları axıtmaqdan başqa əlacı qalmamışdı. Oğlu müharibəyə könüllü getdyindən kimisə uz tutmaq da mənasız idi...

İgid müharibəyə gedən gundən Fəridənin onuz da gənc yaşlarından ağarmış saçları tam ağardı. Hər gün İgidlə telefonla danışmaqdan təsəlli tapırdı. İgid onu inandırırdı ki, arxa cəbhədə hospitalda tibb qardası isləyir, təhlükəsiz yerdədir və yaralılara yardım edir. Fəridə ona həm inanırdı, həm də yox.

Fəridəni yuxudan ürək sıxıntısı ayıltdı. Az qalırdı boğulsun, sanki otaqda hava çatmırdı... Ürək sıxıntısı öz yerini anlaşılmaz bir qorxu hissinə verdi. Bu hiss ona tanış idig Canından artıq sevdiyi həyat yoldaşı Fəridin də ölüm xəbəri gəlməmişdən qabaq onda belə ürək sıxıntısı və qorxu hissi yaranmışdı. Fəridənin Allaha yalvarmaqdan başqa çıxış yolu yox idi. Axşam oğlu ilə danışsa da, müharibədə hər an hər şey ola bilər, - düşüncəsi onu tərk etmirdi. Özünü zorlayıb, nə qədər bu fikirləri uzaqlaşdırmaq istəsə də, bacarmadı. İgidə də zəng edib onu narahat etmək istəmədi - "səhərdi, yəqin uşaq dünən çox işləyib, yorulub yatıb, bir azdan zəng edərəm, narahat etməyim".

İndi də Fəridəni qəhər boğmağa başladı. Öz-özünə, "Mənə nə olub belə?" sualını versə də, cavab tapa bilmədi...

*(Ardı var)*

**AZAD**

Taleyi vaxtında gətirməyən Söz adamları az deyil: o mənada istedadları qiy-mətləndirilmir, adiləşir. Halbuki, belələrinin daxili potensialı, enerjisi və ilhamı səngimir, mövcudluğunu təsdiq edir. Mən belə bir qənaətə təsadüfən gəlmədim, ötən əsrin 70-80-ci illərində poeziyaya gələn - həzin şeirlərilə oxucu qəlbinə və zövqünə aşina olan gənclərdən biri də Nurəngiz Gün idi. Mən onunla təxminən həmyaşıdam. Yazıçılar İttifaqının "Natəvan klubu"nda şeir axşamlarında, tədbirlə-rində görüşürdük, sakitcə danışana qulaq asır, özünə çəkilir, xəyala dalırdı. O, əs-lində "özünəqapılan" xanımdı, elə bilirdin poeziya adamı yox, sadəcə dinləyicidir, əslində isə...

**ESSE**



# NURƏNGİZ GÜNÜN POEZİYASI BARƏDƏ DÜŞÜNDÜKLƏRİM

## *(Sevdiyim şairlər silsiləsindən)*



**Allahverdi Eminov**

Nurəngiz Gün anadan şair doğulmuşdur, o, həmyaşıdlarından fərqli olaraq üzünü Dünyaya, dünyaya zinət verən İnsana tutur.

**İnsandır şeirimin ilki və qurtaracağı,**
**İnsandır şeirimin odu, ocağı.**
**İnsandır yer üzünün çiçəklərdən**
**əzəl bəzəyi.**
**İnsandır, insandır şeirimin rişəsi, özəyi.**
**İnsanların hamısı - cavanı da,**
**qocası da,**
**Qarası da, sarısı da,**
**İnsanların azadı da, dustağı da,**
**Narahat ömrümün döyüntüsüdür,**
**İnsandır, düşüncəm də, nəfəsim də,**
**İnsandır, nəğməmdə,**
**titrəyən səsim də...**
**İnsanlarsız nə dəniz, nə sahil, nə qaya?**
**İnsanlarsız nəyə lazımsan, dünya?**

Nurəngiz Gün Zaman qarşısında gücsüz deyildi, - belə düşünürəm - həyata nəzər yetirir, həm şəxsiyyət baxımından, həm də ruhi aləmi bucağından. İstedadına güvənən şair gözlənilməz məqamlarında vəhyə gəlir və hisslərinin təmizliyilə müşahidəçiyə çevrilir. Poeziya istila etmək deyil, qurban getməkdir, ürəyi açmaq-dır, özünüifadədir. Nurəngiz Gün, axı, şairdir, ilhamına - hisslərinə güvənəndir, onun qaranlıq gücünü işıqlandırır. Nə vaxtsa uçurulmuş sevgisini ağrı ilə xatır-latmaqdır. "Bilməz idim", "Mənim eşqim" bu müqəddəs duyğudan yaranan pıçıl-tılardır.

**Bilməz idim eşq nədir, qəm nədir,**
**Bilməz idim gül nədir, şəbnəm nədir.**
**Bilməz idim kiprik nədir, nəm nədir.**
**sən öyrətdin, qaytar apar, istəməm!**

**Bilməz idim ay necə dolanarmış,**
**Bilməz idim ay gecə dolanarmış,**
**Bilməz idim sinəm belə yanarmış,**
**sən öyrətdin, qaytar apar, istəməm!**

**Bilməz idim üzün belə dönükmüş,**
**Bilməz idim, eşqin belə sönükmüş.**
**Sevdamıza yağış da, qar da çökmüş,**
**Bilməz idim, qaytar apar, istəməm!**

Nurəngiz Günün poeziyasında fikri və zövqü ovsunlayan sehr vardır, idrakın sadə, lakin işıqlı oxucu "silahı" ilə atəşə tutulur, həzin səslənməsilə hikmətli sü-kutun möcüzəsini əyaniləşdirir, bütün hallarda şeirin predmeti insandır, poeziyası insanın dililə danışır, tərənnüm edir, deməli, həyatın ekzistensiya təsviri üçün ən mühüm vasitədir. "Salam çörəyə, gülə, Günəşə" şeirində şair İnsanı salamlayır:

**Salam sənə, İnsan!**
**Salam sənə, doğma yurd!**
**Doğma İnsan!**
**Salam sənə, on ulu eşq!**
**Bu torpaq!**
**Salam sənə, odlu diyar!**
**Yanar çıraq!**
**Salam sənə, anam!**
**Can yadigarım!**
**Salam sənə, nakam sevgim!**
**Rüzgarım!**
**Salam sənə, bircəciyim!**
**Evladım!**
**Salam sənə, kövrəkciyim!**
**Qanadım!**
**Salam sənə, dünyam!**
**Sərhədli dünyam!**
**Salam sənə, dumanlı, dərdli dünyam!**
**Salam sizə, dərin-dərin dəryalar!**
**Salam sizə, yalqız, yalçın qayalar!**
**Salam olsun, salam!**
**Bir də sizlərə -**
**Salam olsun, Təbrizli əzizlərə!**
**Salam olsun, ulduzlara, atəşə!**
**Salam olsun, bir də çörəyə, gülə,**
**Günəşə!..**

Nurəngiz Günün poeziyasında Günəş obrazı müəllifin duyğularının əks-sədasıdır. "Mənə yaman soyuqdur, Günəş" şeirində şair mövcud məkana sığışmır, axı, bu Yer hamı üçün deyil! Bu Yer hamı üçün Ana olmur! Şair fəhmlə bu hissi duyur və Günəşə gileylənir, özünü təqdim edir:

**Günəş!.. Mənə soyuqdur**
**Axı mən qütbə gedən tək gəminin**
**məzlum mənzərəsinə dözümsüz**
**oluram.**
**Axı üşüyürəm mən hərdən**
**azad qanad yoluna atəş açan**
**zalım ovu üzündən.**
**... Günəşim! Tez-tez röyalarımdasan!**
**Bir dəfə də xəyalımda**
**səninlə öpüşəndə,**
**qucaqlaşıb demişdim:**
**Məhvəşim! Atəşim! Sahib dur!..**
**Məşum toxunur hər şey.**
**Çək məni, apar məni.**
**Apar, apar!..**
**Yerdə mənə yaman soyuqdur, Günəş!**

Bu hissi Nurəngiz Gün digər şairlərdən fərqli duyumda anadangəlmə ap-rioprluq keyfiyyətlərilə seçilir (bu, şairin poeziyasına xas əlamətdir): Təfəkkür, Seyretmə və Hissetmə. Alman filosofu İ.Kanta (1724-1804) görə, poetik şüur poeziyanı, əyani seyretmə plastik sənətlə duyma musiqini meydana gətirir. Bu "triada" ("üçlük") istedadlı şairin yaradıcılığına xasdır. Mən bu qənaətə bir neçə il əvvəl Nurəngiz xanım haqqında yazdığım və "525-ci qəzet"də çap etdirdiyim məqaləmdə gəlmişdim. Nurəngiz Günün oxucuları zövqlü və tələbkar olduğu üçün vassallıqdan intellektuallığacan, emosionallıqdan estetikliyəcən yol gəlmişdir, fikrin Sözə çevrilmiş maddiyyat çəkisində şeirin bakirəliyini tapmışdır. Bu baxımdan şairin oxucuları cəsarətlidir, zövq almaqda dəyməduşərdir, eleqantdır, necə ki şair Nurəngizin şəxsiyyəti kimi poeziyası da belə bir bədii sərvətə malikdir. Necə ki, mövcud Dünya onun ürəyinə sığışmır:

**Mən gedirəm axar suya deyəm ki,**
**Mənim sadiq yarım ol.**
**Al məni də qoynuna**
**apar get,**

- deyən şair əbəs yerə üzünü axar çaya tutmur, axı su paklıqdır, təmizlikdir, "Mən burda darıxıram, ögey kimiyəm, apar məni uzaqdakı məcrana, ört üstümü, çınqıl mərcanlarla" pıçıldayır. Bu rica Nurəngiz Günün azadsevərliyidir. O, həyatı dərindən sevərdir, Dünyanın, yuxarıda vurğuladığım kimi, ziddiyyətlərinə yeri gə-ləndə dözümsüzdü, amma ümidsiz deyildir.

**Apar get, ən dərin dəryaçana**
**O sözü də... pıçılda sən ona.**
**De ki, asimanla aranızda qalacaq.**
**Mənim sənə sonuncu dediklərim.**

**Apar get...**
**Apar, apar,**
**Yadlardan yorulmuşam, aşiyan ol,**
**Sərinlik istəyir can...**
**Apar, məni də apar,**
**Daha könül qəhr edir.**
**Apar, apar!**
**Axar çay...**

"Biz ki, qu quşlarıydıq" şeir məni çox uzaqlara apardı - ovçuluq illərimə. Qu quşları digər uçarlardan fərqli olaraq ovçunu - insanı görəndə belə, qorxmur, çəkinmir, iri qanadlarını şappıldada-şappıldada havanı yarır və uzaqlara uçur. Şairin özünü qu quşlara bənzətməsi bu cəhətdən təsadüfi deyil:

**Bizim öz mahnımız vardı,**
**Sədasına üfüqlər oyanardı...**
**Biz vardıq. Biz asimandaydıq,**
**Biz buludları yarardıq,**
**Qıyy vururduq, yorulmayırdıq.**

Beləcə qu quşu ömrünü yaşamaq səadət deyildimi? Təəssüf yox idi ölümü-müzdə, - deyir.

**O imiş gördüklərimiz,**
**Nə dəryaz var idi, nə xırmanımız.**
**Aman ovçu!**
**İndi qov kimi bu boşluqda**
**Hey uçur, hey uçar...**
**Günahsız ruhumuz, xəyallarımız,**
**Ah, biz, qu quşlarıydıq?!**

Poeziya oxucunun varlığına hopur - Dünyanın hay-küyünə, səslənməsinə və çağırışına baxmayaraq düşünməyə aparır - bu şeirin zərif qanadıdır, şair üçünsə nisgillik, qəribəlik, nostalji yaşantıdır. "Məni mənə vermədilər" şeiri sanki şairin bədii tərcümeyi - halıdır, nə istəmiş ki? Nəyi bilmədilər ki?



**Nə dərd, nə ələm bildilər,**
**Nə istədim vermədilər.**
**Əslində nə istədim ki? -**

**Düzləri görmək istədim -**
**ürək üçün**
**Bir veyli külək istədim -**
**seyr edib yer üzünü,**
**azadə nəfəs dərib**
**asudə ölmək üçün -**
**Vermədilər...**
**Bir ovuc torpaq istədi**
**sinəm ilə bərabər**
**dərdlərimi çökməyə!**
**Vermədilər.**

Bəli, bu Dünya belə yaranıb insanın istəyini boğsun, onu özündən qoparsın, "bir bəyaz həyat istəsin, amma yollarını hörürlər". Şair isə Dünyanın bu haqsızlığı qarşısında susmağa məcburdur.

**Hey yandım, hey çırpındım,**
**Çırpındım, fəğan eylədim,**
**Vermədilər, vermədilər.**
**Məni məndə görmədilər -**
**Məni mənə vermədilər.**

Əvvəlki fikrimə qayıdıram: Vaxtında bir istedadlı şairənin hisslərini duyma-maq və qiymətləndirməmək - bax, budur şairin taleyi, hansı ki, Nurəngiz Günün poeziyası bir poetik qəlbin fatehidir, heyrətləndirir, sevinclə kədərin arasında qalır, ədalətlə haqsızlığın simvoluna çevrilir. Axı, poeziya obrazlı və sosial şərt olaraq gerçəkliyin hissi qavrayışıdır, Dünya azadlığının həzin təkamülüdür.

Nurəngiz Günün poeziyası özünü təsdiq etmiş ki, istedadla hissiyyatın bir-birini tamamlamasıdır, kainatın harmoniyasına can atmasıdır, Dünyanı qaranlıqdan xilas etməsidir.




# Opera sənətimizin möhtəşəm abidəsi...

## Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası bu gün də öz dəyərini qoruyur...

**Azərbaycan musiqi mədəniyyəti tarixində Üzeyir Hacıbəylinin xidmətləri əvəzsizdir. Bütün şüurlu həyatını musiqimizin inkişafına həsr etmiş bu dahi şəxsiyyət musiqi üçün doğulmuşdu. Onun yaratdığı əsərlər böyüklüyündən-kiçikliyindən, janrından asılı olmayaraq ilk andan ürəkləri fəth edir, dillər əzbərinə çevirilir, dünyanı dolaşırdı. Bu, Üzeyir bəy sənətinin böyüklüyü idi.**

Üzeyir bəy bir Azərbaycan ziyalısı kimi təkcə özü musiqi şedevrləri yaratmırdı, həm də musiqi istedadı olan gənclərin əlindən tutur, onlara yol göstərir, maddi və mənəvi köməkliyini əsirgəmirdi.

Adi kənd mirzəsinin oğlu olan Üzeyir bəy Hacıbəyli musiqi mədəniyyətimizin siması idi. Yaratmaq eşqi heç zaman sönməyən, daim qaynayıb-coşan Üzeyir bəy hər bir əsəri ilə milyon-milyon ürəkləri fəth edirdi.

Üzeyir bəyin adı musiqi mədəniyyəti tariximizə əbədi yazılmışdır. Məhz bu böyük sənət adamının gərgin əməyi, inadlı axtarışları, ən əsası sənət yanğısı əsasında Azərbaycanda opera sənətinin əsası qoyulmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinin motivləri əsasında yaradılmış bu opera böyük əks-səda doğurmuş, Üzeyir bəyə sonsuz şöhrət qazandırmışdır. Nə az, nə çox, düz 117 il əvvəl - 1908-ci ildə səhnəyə qoyulmuş bu klassik sevgi operası indi də opera səhnəmizin bəzəyidir.



Opera çətin musiqi janrıdır. Hər bəstəkar bu janrda öz bacarığını yoxlamağa cürət etmir. Üzeyir bəyin istedadı isə hər şeyə qadir idi. Çünki, o, musiqi üçün doğulmuşdu.

Təbiidir ki, indi opera yazmaq, tamaşaya qoymaq bəlkə də o qədər çətin deyil. Təki musiqi istedadın olsun. Amma o dövrün çətinlikləri tamam başqa idi. Və Üzeyir bəy kimi sənət eşqi ilə yanan adamların müstəsna xidmətləri ondan ibarətdir ki, onlar usanmırdılar, çətinliklərdən qorxmurdular.

Üzeyir bəyin "Leyli və Məcnun" əsəri ilə tanışlığı Əbdürrəhim bəy Haqverdiyev tərəfindən təşkil edilmiş tamaşa ilə başlamışdı. Maraqlıdır ki, Üzeyir bəy onda cəmi 13 yaşında imiş və tamaşada oğlanlar xorunda oxuyurmuş.

Məcnun rolunu səhnə fədaisi Hüseynqulu Sarabski oynayırmış. Nə qədər primitiv şəkildə ərsəyə gəlsə də, tamaşa maraqla qarşılanır. Üzeyir bəyin gələcəkdə bu mövzuda opera yazmağı qərarlaşdırması da, bu tamaşadan sonra yaranır.

O vaxt nə güclü teatr truppası vardı, nə münasib səhnəmizan, nə də şərait. Müxtəlif təzyiqlər isə başdan aşırdı. Amma yaratmaq həvəsi azalmırdı. Ən böyük çətinlik isə başqa məsələ idi: Qadın rolunun ifaçısı. O illərdə hansısa bir qadının səhnəyə çıxması ağlagəlməz bir hadisə idi. Bəs Leyli rolunu kim oynasın?! Axı, əsas personajlardan biri də Leylidir. Ona da əlac tapılır. Əlbəttə, Üzeyir bəyin, Hüseynqulu Sarabskinin bir növ inadkarlığı sayəsində.

İlk opera tamaşası 1908-ci ildə H.Z.Tağıyev teatrında baş tutanda uzun axtarışlardan sonra tapılmış aşpaz köməkçisi Əbdürrəhman Fərəcov adlı birisi operada Leyli rolunu ifa etməyə razılıq verir. Ancaq bir şərtlə ki, onun adı, kimliyi bilinməsin.

Beləcə, minbir çətinlikdən sonra opera səhnəmizin təməli qoyulur və həmin il, həmin gün tariximizə çevirilir.

Daha maraqlı faktla diqqəti çəkmək istəyirəm. İlk opera tamaşasına Əbdürrəhim bəy Haqverdiyev dirijorluq, Üzeyir bəy özü isə orkestrdə skripka partiyasını ifa edirmiş.

Hüseynqulu Sarabskinin bu barədə xatirələri çox təsirlidir: İlk tamaşa o qədər də asan keçməyib. Onsuz da problem içində olan ilk tamaşada daha ağlagəlməz bir problem ortaya çıxıb. Musiqiçilər arasında mübahisə yaranıb. Nəticədə onlardan heç biri ilk opera tamaşasında çıxış etməyə gəlməyib. Təkcə misilsiz tar ustamız Qurban Pirimovdan başqa. Tamaşa baş tutub, özü də uğurla.

Hüseynqulu Sarabski xatirələrində qeyd edir ki, ilk tamaşaya bilet tapılmayanda camaat zorla teatr binasına girmişdi. Tamaşadan sonra H.Sarabskini "Məcnun" deyə çağırırmışlar...

Sənətsevər xalqımız bu günü, opera sənətinin təməlinin qoyulması gününü çoxdan gözləyirdi. Xalqın bu arzusunu ürəyi daim öz xalqı ilə döyünən Üzeyir bəy Hacıbəyli gerçəkləşdirdi.

İlk operamız o qədər şöhrət və nüfuz qazanmışdı ki, düz, ardıcıl olaraq 30 il hər mövsüm repertuardan düşməmişdi. Elə bu gün də çox populyardır.

Böyük Üzeyir bəy Hacıbəylinin yaratdığı bu misilsiz sənət incisi bütün İslam dünyasının ilk operasıdır. Təsadüfi deyil ki, "Leyli və Məcnun" operası YUNESKO -nun xüsusi tarixlər siyahısına daxil edilmişdir.

Düz bir əsrdən çoxdur ki, əfsanəvi məhəbbət mövzusunda yaranmış bu opera müxtəlif quruluşlarda tamaşaya qoyulur, hər dəfə də sevilir, alqışlanır. Səhnədə Məcnun, Leyli obrazlarını çox böyük uğurla yaratmış onlarca sənətkarlar nəsli yetişmişdir.



Opera səhnəmizin əbədi tamaşası "Leyli və Məcnun" bu gün də öz dəyərini qoruyur.

Bəli, Üzeyir sənəti ölməzdir.

**Fuad BİLƏSUVARLI**

## Milli Məclisdə Qərbi azərbaycanlılara təzminat tələb edildi



**Milli Məclisdə Qərbi azərbaycanlıların təzminat məsələsi qaldırılıb. Bu barədə Milli Məclisin yaz sessiyasının ilk iclasında deputat Hikmət Babaoğlu deyib.**

O bildirib ki, guya Ermənistan Qərbi Azərbaycanlılara kompensasiya ödəyib: "Ermənistan xarici işlər nazirinin bu açıqlaması həm həqiqətin, həm də rəqəmlərin təhrifidir. Birincisi, Ararat Mirzoyanın dediyi kimi, 170 min deyil, 300 min azərbaycanlı etnik təmizləmə siyasətinə məruz qalıb. İkincisi, verilən kompensasiya azərbaycanlıların evləri üçün verilən kompensasiya deyil. Çünki 1988-ci ildə dekabr ayının 7-də Spitak şəhərində zəlzələ baş verdi. 1988-ci ildə müstəqil Ermənistan Respublikası yox idi. Həmin vaxt zəlzələ baş verən ərazidə yaşayan azərbaycanlılara evlərinin təmir edilməsi üçün SSRİ büdcəsindən müəyyən kompensasiyalar verildi. Amma o ödənilən kompensasiya xərcləndikdən sonra, evlər təmir edildikdən sonra, həmin evlər ermənilər tərəfindən mənimsənildi və azərbaycanlıların mülkiyyət hüququ tapdandı".